www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 25 iyun 2018-ci il Bazar ertəsi № 135 (7024) Qiymətı 60 qəpik

**Xəbər**

## Hacıqabulda dəhşət: xalası qızının boğazını kəsdi

yazısı səh.14-də

**Gündəm**

### Bu gün AŞPA-nın yay sessiyası başlayır



Gündəmdə Azərbaycana dair iki məsələ var; **ekspert:** "11 aprel seçkilərinin müzakirəsi baş tutmayacaq, çünki..."

yazısı səh.4-də

### Bakıda böyük Qarabağ mitinqinə ehtiyac varmı? - iki fərqli baxış

yazısı səh.9-da

### Əməkdaşımız Gədəbəyin sərhəd kəndlərindən yazır

yazısı səh.7-də

### Əli Kərimli Elçibəyin yubiley tədbirinə niyə qatılmadı?

yazısı səh.6-da

### Bakıda kirayə evləri bahalaşdıran səbəblər

yazısı səh.14-də

### Reklam edilən energetik içkilər qəfil ölümə gətirə bilər - SOS

yazısı səh.14-də

### "Büdcəyə son dəyişikliklər məntiqə və qanuna uyğundur" - iqtisadçı ekspert

yazısı səh.4-də

### Mundialda qırğın bu gün başlayır - mühüm qarşıdurmalar

yazısı səh.13-də

*Rusiyalı ekspert:*

### "Qarabağ məsələsində yalnız müharibə yolu qalıb"

yazısı səh.11-də

### Bahalı toylarımız - qınayırıq, amma dəyişmirik, niyə?

yazısı səh.10-da

### Günü gözəl keçirməyin "qızıl" qaydaları, uğur düsturları

yazısı səh.15-də

# ƏSRİN GÜC NÜMAYİŞİ: AZƏRBAYCAN VƏ TÜRKİYƏDƏN MÖHTƏŞƏM "PERFORMANS"

Sabah Bakıda müstəqillik dönəminin ən böyük paradı keçiriləcək; "Türk şahinləri" paytaxt səmasında süzəcək, 100 ildə ilk dəfə Türkiyə hərbçiləri Azadlıq meydanında keçid edəcək; dünya Bakıdan son Qarabağ mesajını alacaq; nəzərlər Azərbaycanda...




yazısı səh.8-də

## Türkiyədə kritik seçkilər baş tutdu - xalq Ərdoğanla "Yola davam" dedi, ancaq...

Qardaş ölkədə tarixi seçkilər insidentsiz yekunlaşdı; parlament "Cümhur İttifaqı"nın nəzarətinə keçir? Toğrul İsmayıl: "Seçkilərin bu şəkildə olacağını əvvəlcədən bilirdik..."

yazısı səh.3-də



### Müxbirimiz yubiley günü Elçibəyin kəndində oldu

yazısı səh.6-da



Yavər Camalov

### Vəfat edən nazir oğlunun yanında dəfn edildi

yazısı səh.2-də



*Qabil Hüseynli:*

### "Moskva Nikol Paşinyanı aradan götürə bilər"

yazısı səh.9-da



## Vəfat edən nazir oğlunun yanında dəfn edildi

**İki gün öncə vəfat edən müdafiə sənayesi naziri Yavər Camalov dünən dəfn edilib (APA). Dəfn mərasimi Camalovun Bakıda yaşadığı evdə keçirilib. Mərasimdə dövlət və hökumət rəsmiləri, deputatlar və ictimaiyyət nümayəndələri iştirak ediblər.**

Y. Camalov Şüvəlan qəsəbə qəbiristanlığında, keçən il ağır xəstəlikdən dünyasını dəyişən 44 yaşlı oğlu Rövşən Camalovun yanında dəfn olunub.

Qeyd edək ki, 69 yaşlı Y. Camalov da uzun müddət idi ağır xəstəlikdən əziyyət çəkirdi. Bu günlərdə Parisdə keçirilən "EUROSATORY-2018" beynəlxalq müdafiə və təhlükəsizlik sərgisində iştirak etmiş Y. Camalovun srağagün günorta saatlarında Bakıda evində səhhəti qəfil pisləşib və dünyasını dəyişib.

Y. Camalov 17 oktyabr 1949-cu ildə Sabirabad rayonunun Çölbeşdəli kəndində anadan olub, 1972-ci ildə Azərbaycan Neft və Kimya İnstitutunu bitirib. 1972-ci ildə "Siyəzənneft" Neftqazçıxarma idarəsinin operatoru, 1972 -1989-cu illərdə "Şirvanneft" Neftqazçıxarma idarəsində operator, mühəndis, böyük mühəndis, növbə rəisi, rayon mühəndis-texnoloji xidməti rəisinin müavini, baş mühəndis-sex rəisinin müavini, NQÇİ-nin baş mühəndisi, 1989 -1995-ci illərdə "Şirvanneft" Neftqazçıxarma idarəsinin rəisi, 1995 -2003-cü illərdə Quruda Neftqazçıxarma İstehsalat Birliyinin baş direktoru, 2003-2006 - cı illərdə "Azneft" İstehsalat Birliyinin baş direktoru vəzifələrində çalışıb. Azərbaycan Respublikası Prezidentinin 18 mart 2006-cı il tarixli sərəncamı ilə müdafiə sənayesi naziri təyin edilib və ötən dövr ərzində 3 dəfə yenidən bu vəzifəyə təsdiqlənib. 16 oktyabr 2009-cu ildə İlham Əliyevin sərəncamına əsasən ölkənin iqtisadi inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilib.

## Azərbaycanda banklar 11 milyard manatdan çox kredit verib




**2018-ci il may ayının 1-nə ölkənin bank və digər kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 11 milyard 815,8 milyon manat təşkil edib. Trend-in məlumatına görə, ümumi kredit portfelinin 9 milyard 516,4 milyon manatı və ya 80,5 faizi uzunmüddətli kreditlərin payına düşüb.**

Kreditlərin 96,7 faizi banklar, 3,3 faizi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilib. Ödəmə vaxtı keçmiş kreditlərin məbləği 1 milyard 708,8 milyon manat olub və ümumi kredit portfelinin 14,5 faizini təşkil edib.

## Lukaşenkodan şok etiraf: "Müstəqilliyimizi itirə bilərik..."



**Belarus prezidenti Aleksandr Lukaşenko ölkəsinin müstəqilliyini itirə biləcəyini bəyan edib. Lukaşenko bu gözlənilməz bəyanatı Moqilevsk vilayətinin Şklosk rayonuna səfəri zamanı səsləndirib.**

A. Lukaşenko deyib ki, əgər xalq ölkənin qarşısına qoyulan iqtisadi məqsədə nail olmasa, respublika müstəqilliyini itirə bilər: "Əgər bu illər ərzində uğur qazana bilməsək, uğursuzluğa düçar olsaq, hansısa dövlətin tərkibinə daxil olmaq lazım gələcək, ya da sadəcə, bizi diz çökdürəcəklər" (APA).

# Naxçıvanda hərbi obyektlərin açılışı olub



**Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaranmasının 100-cü ildönümü ərəfəsində Əlahiddə Ümumqoşun Ordusunun hərbi hissəsi üçün yeni xidmət və yaşayış kompleksi istifadəyə verilib. Lent.az xəbər verir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbov bu münasibətlə keçirilən tədbirdə iştirak edib. Əlahiddə Ümumqoşun Ordusunun komandanı, general-leytenant Kərəm Mustafayev Ali Məclisin sədrinə raport verib.**

Ali Məclisin sədri hərbi hissədə yaradılan şəraitlə tanış olub. Məlumat verilib ki, hərbi hissənin ərazisində qərargah binası, 126 yerlik əsgər və 52 yerlik zabit yataqxanaları, yeməkxana, kafe, qazanxana və avtomobillər üçün saxlanc yeri inşa edilib. Qərargah binasında iş və sinif otaqları var. Sinif otaqlarında yaradılan şərait şəxsi heyətin hərbi-nəzəri biliklərinin və ideoloji hazırlıqlarının artırılmasına öz töhfəsini verəcək. Hərbi hissədə əsgərlərin fiziki və hərbi hazırlığı diqqətdə saxlanılıb, sıra meydanı, ümumqoşun manelər zolağı və idman şəhərciyi salınıb, voleybol, basketbol və futbol meydançaları istifadəyə verilib.

Məlumat verilib ki, Əlahiddə Ümumqoşun Ordusunun Hərbi Zavodunda yığılan 10 ədəd kompleks rabitə stansiyası İP texnologiyalarına əsaslanır və müasir avadanlıqlarla təmin olunub. Avtomobil və qoşqu üzərində yığılan kompleks rabitə stansiyasının rabitə məsafəsi 100 kilometrdir. Stansiya idarəetmə məntəqələri arasında və daxilində rəqəmsal kanallarla audio, video, şəkil, data, anoloq, İP telefon və radio məlumatların mübadiləsini məxfilik qorunmaqla təmin edir. Hava hücumundan müdafiə bölmələrinin idarəetmə məntəqəsi daimi dislokasiya və səhra şəraitində döyüş növbətçiliyi aparan hava hücumundan müdafiə heyətlərinin idarə olunması üçün nəzərdə tutulub. İdarəetmə məntəqəsi planşet, radiostansiyalar və digər zəruri avadanlıqlarla təchiz edilib. Bu da muxtar respublikanın istənilən ərazisində hava hücumundan müdafiə heyətlərinin idarə olunmasına və hava məkanına nəzarətin həyata keçirilməsinə imkan verir. Hazırda 6 idarəetmə məntəqəsi istismara verilib.

Baxış zamanı qeyd olunub ki, ərazidə yeni istirahət parkı da salınıb. 5 min kvadratmetr sahəni əhatə edən parkda dekorativ ağaclar və gül kolları əkilib, şəlalə tikilib, müasir işıqlandırma sistemi quraşdırılıb. Parkda oturacaqlar və şahmat stolları qoyulub, sakinlərin mənalı istirahəti təmin olunub.

## Kim Çen İn 500 türk şəhidi Ankaraya qaytarır

**ABŞ Prezidenti Donald Tramp və Şimali Koreya lideri Kim Çen İn arasında imzalanan tarixi sazişdən sonra Türkiyə 1950-53-cü illərdə Koreya müharibəsində şəhid olan əsgərlərinin nəşlərinin təhvil verilməsi üçün rəsmi danışıqlara başlayıb.**



Axar.az xəbər verir ki, bu barədə Türkiyənin Seuldakı səfiri Ersin Erçin ötən həftə Şimali Koreyaya səfər edərək 1 həftə ərzində ölkə rəsmiləri ilə danışıqlar aparıb.

"Görüşlərimizin o zaman (2001) başlamasının səbəbi o tarixdə diplomatik təmasların qurulması idi. Şimali Koreyanın nüvə silahı ilə bağlı fəaliyyətləri səbəbindən danışıqlar yarımçıq qaldı. Sülh sazişinin imzalanmasından sonra Şimali Koreya ilə görüşlərə yenidən başladıq. Bu ölkədə olan şəhidlərimizin şəxsiyyətlərinin müəyyən edilməsi üçün yaxınlarından DNT nümunələri götürüləcək. Bu nümunələr Şimali Koreya rəsmilərinə təhvil veriləcək" - səfir bildirib.

Qeyd edək ki, ərazidə həmçinin ABŞ və ingilis əsgərlərinin cənazələri olduğu üçün proses diqqətli şəkildə aparılacaq və bundan sonra qəbirlərin Cənubi Koreya ilə sərhədə, yoxsa birbaşa Türkiyəyə köçürüləcəyinə qərar veriləcək.

**Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!**

Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!

Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.

**Telefon: (012) 434 93 01**

## Paşinyan İrana niyə gedir? - əsas hədəf

**"Paşinyanın İrana səfər etmək istəməsi o anlama gəlməlidir ki, Ermənistan İranla bağlı siyasətini dəyişməyəcək, əksinə, bunun daha da inkişaf etdirilməsi üçün İran rəsmilərindən xahişlər edəcək". "Yeni Müsavat"ın məlumatına görə, bu sözləri axar.az-a açıqlamasında beynəlxalq əlaqələr üzrə ekspert Elşən Mustafayev deyib.**

O bildirib ki, əslində hakimiyyətdə kimin olmasından asılı olmayaraq, Ermənistan İranla əlaqələrin inkişafında həmişə maraqlı olacaq: "Bu, İrana olan böyük rəğbət, məhəbbətdən deyil, Ermənistana həyatı mənada vacib olan şərtdən doğan istəkdir. Bilirik ki, Ermənistanın Türkiyə ilə sərhədləri bağlıdır, Azərbaycanla isə müharibə vəziyyətindədir. Yalnız İran vasitəsilə ilə müxtəlif iqtisadi proyektlər həyata keçirə bilər. Daha doğrusu, İran Ermənistana əvvəllər olduğu kimi müxtəlif yardımlar və yatırımlar edə bilər. İranın da bu məsələdə maraqları rəsmi İrəvana olan simpatiyasından qaynaqlanmayıb. Çoxları həmişə İranı qınayıb ki, Azərbaycanın ərazilərini işğal edən, müsəlman əhalisini qətlə yetirən bir dövlətlə çox yaxından əməkdaşlıq etməklə, Azərbaycana olan real münasibətini ortaya qoyub. Yəni islam dövləti adlandırılsa da, islami dəyərlərlə ziddiyət təşkil edən bu şəkildə xarici siyasət yürütməsi hətta İran daxilində belə zaman-zaman etirazlara səbəb olub. Amma bütün bunlara baxmayaraq, siyasi çıxarları naminə hər iki dövlət əlaqələrini davam elətdirir".

Ekspert vurğulayıb ki, Paşinyanın baş tutacaq səfərində də əsas danışıqlar Ermənistanla strateji sahələrdə əməkdaşlığın genişləndirilməsi ətrafında aparılacaq: "Biz bilirik ki, İran Ermənistanda indiyədək müxtəlif iqtisadi layihələr həyata keçirib və bundan sonra da davam etdirmək niyyətindədir. Əvəzində çox güman ki, İrəvan da siyasi sahədə müxtəlif məsələlərdə İrana dəstək verməklə, qarşılıqlı jestlərini edəcək. Hesab edirəm ki, Paşinyan ilk növbədə İran hakimiyyətini inandırmağa çalışacaq ki, münasibətlərdə hər hansı dəyişiklər olmayacaq. Yəni yeni hökumətin Qərbə meyilli olmasını deyənlər olsa da, Qərbin İranla bağlı siyasətinə dəstək verməyəcək".

Ekspert qeyd edib ki, burada Rusiya faktorunu da nəzərə almaq lazımdır: "Rusiya ilə hərbi-iqtisadi bloklarda təmsil olunan bir dövlət həmin blokların siyasətinə istəsə belə zidd gedə bilməz. Nəticə olaraq demək istəyirəm ki, bu səfər son 26 ildə olan səfərlərdən biri kimi olacaq və ona xüsusi önəm verməyə də dəyməz. Zatən hər iki dövlətin bir-birinə də, Azərbaycana da münasibətləri ayrı-ayrılıqda həmin zamandan bəllidir".

Qeyd edək ki, Ermənistan Baş naziri Nikol Paşinyan İrana səfər etməyə hazırlaşır.

YENİ MÜSAVAT
N 135 (7024) 25 iyun 2018




# Türkiyədə kritik seçkilər baş tutdu - xalq Ərdoğanla “Yola davam” dedi, ancaq...

## Qardaş ölkədə tarixi seçkilər insidentsiz yekunlaşdı; parlament “Cümhur İttifaqı”nın nəzarətinə keçir? **Toğrul İsmayıl:** “Seçkilərin bu şəkildə olacağını əvvəlcədən bilirdik...”

**İyunun 24-də Türkiyədə növbədənkənar prezident və parlament seçkiləri keçirildi. Seçkilər Bakı vaxtilə saat 09:00-da başlayıb, 18:00-da başa çatıb. Qardaş ölkədə son onilliklərin ən kritik seçkilərində ilk dəqiqələrdən yüksək seçici fəallığı müşahidə edilib.**

Qeyd edək ki, növbəti 7 illik dönəmdə Türkiyə rəhbəri olmaq üçün 6 iddiaçı yarışıb. Onlar Türkiyənin hazırkı prezidenti, AKP-nin namizədi Rəcəb Tayyib Ərdoğan, Cümhuriyyət Xalq Partiyasının (CHP) namizədi Məhərrəm İncə, İyi Partiyanın başqanı Meral Akşener, Səadət Partiyasının sədri Təməl Karamollaoğlu, Vətən Partiyasının sədri Doğu Perinçək və Xalqların Demokratik Partiyasının (HDP) həbsdə olan namizədi Səlahəddin Dəmirtaş idi.

Türkiyə Böyük Millət Məclisindəki 600 deputat yeri uğrunda isə iki ittifaq arasında gərgin mübarizə gedib. Bunlar hakim AKP və müxalif qurum olan MHP-nin yaratdığı “Cümhur” ittifaqı, müxalifətin CHP, İYİ, Səadət və Demokratik partiyalarının “Millət ittifaqı” idi.

Məlumat üçün bildirək ki, Türkiyədə 59 milyon 391 min 328 vətəndaş səsvermə hüququna malikdir. Bu seçicilərin 56,3 milyonu Türkiyədə, qalanı isə xarici ölkələrdə yaşayır. Seçkilər başlananadək xaricdəki seçicilər üçün səsvermə prosesi başa çatıb, bülletenlər Türkiyəyə gətirilib.

Səsvermə prosesini 34 ölkədən 650 KİV təmsilçisi, eləcə də 500-ə yaxın beynəlxalq müşahidəçi izləyib.

Prezidentliyə iddiaçılar müxtəlif yerlərdə səs veriblər. R.T.Ərdoğan səsverməyə İstanbulun Üsküdar rayonunda yerləşən məktəblərdən birindəki seçki məntəqəsində qatılıb. Onunla yanaşı, həyat yoldaşı Əminə Ərdoğan və kürəkəni - Türkiyənin energetika və təbii sərvətlər naziri Berat Albayrak da səs veriblər.

Ərdoğan səsvermə zamanı bildirib ki, Türkiyə bazar günü ölkədə keçirilən növbədənkənar prezident və parlament seçkiləri sayəsində demokratik inqilab edir: “Bu seçkilər əhəmiyyətli bir xüsusiyyətə malikdir. Türkiyə onların sayəsində əməli olaraq demokratik bir inqilab edir”.

Dövlət başçısı həmçinin bildirib ki, seçicilərin seçkilərdə iştirak səviyyəsi yaxşıdır: “İndiyədək 50% seçicinin səs verdiyini öyrəndik. Dünyanın ən inkişaf etmiş ölkələrində belə seçkilərdə fəallıq 30% olur. Türkiyə bunun öhdəsindən gəldi”.

M.İncə isə ailəsi ilə birlikdə Yalovada səsvermə məntəqəsinə gəlib. Musavat.com-un məlumatına görə, səs verdikdən sonra jurnalistlərlə söhbətində M.İncə dərhal Ankaraya yola düşəcəyini bildirib. CHP namizədi səs verərkən onun jurnalistlə arasında gərginlik yaşanıb. O, səsvermə zamanı onun əlini çəkən operatoru danlayıb. Belə ki, səs verdikdən sonra açıqlama verməyə hazırlaşan İncə onu çəkən xəbər agentliyinin müxbirinə “O hərəkəti etmə. Əlimdən tutub çəkirsən, uşaq çəkər kimi” deyərək reaksiya verib.

Daha sonra açıqlama verən İncə “Vətən, millət üçün xeyirlisi olsun. Axşam YSK-nın (Yüksək Seçim Qurumu) önündə olacam” deyib. Binadan çıxandan sonra təkrar jurnalistlərin qarşına çıxan İncə danladığı müxbirin harada olduğunu soruşub və “Zarafat edirəm” deyərək üzr istəyib.

İYİ Partiya başqanı Meral Akşener də yerli vaxtla 10:30-da İstanbuldakı seçki məntəqəsinə gəlib. Jurnalistlərə açıqlamasında o, səs verdikdən sonra Ankaraya gedəcəyini qeyd edib.

Türkiyənin baş naziri Binali Yıldırım səs verdikdən sonra jurnalistlərə açıqlamasında bildirib ki, seçkilərdən sonra Türkiyə daha da güclənəcək. Baş nazir onu da qeyd edib ki, Türkiyədəki seçkilər əvvəlki kimi demokratik şəraitdə keçirilir: “Türkiyə xalqı doğru və layiqli seçim edəcək”.

Xarici işlər naziri Mövlud Çavuşoğlu da səsvermə prosesində iştirak edib. XİN rəhbəri doğulduğu Antalya şəhərində səs verib. “Vətəndaşlarımızdan səs istədik. Bu gün də vətəndaşlıq vəzifəmizi yerinə yetiririk. Səsimizi verdik. Vətənimizə, millətimizə xeyirli olsun. Bu seçkilərə yeni bir hökumət sistemi ilə daxil olduq. Türkiyə tarixinin ən kritik seçkiləri keçirilir. İnşallah, millətimiz, ölkəmiz və dövlətimiz üçün xeyirli olsun”, - Çavuşoğlu bildirib.

*****





Dünənki seçkilərdə bir ilk də yaşanıb. Belə ki, xəstəliyi və fiziki qüsuru olduğu müəyyən edilən 17 min 258 seçici üçün Türkiyədə ilk dəfə səyyar seçki xidməti təşkil olunub. Türkiyənin Yüksək Seçki Qurumunun ərizələr əsasında müəyyən etdiyi bu şəxslərin səs verə bilməsi üçün seçki qutuları onların evlərinə aparılıb və burada da seçki prosesinin gizliliyi təmin olunub.

Əvvəldən ehtimal edildiyi kimi, seçki günü baş verə biləcək terror aktının qarşısı alınıb. Türkiyənin Ankara şəhərində prezident seçkiləri zamanı təxribat törətməyə hazırlaşan 11 terrorçu yaxalanıb. Axar.az xəbər verir ki, bu barədə Türkiyə mətbuatı yazıb. Məlumata görə, terrorçular hücum planlarını müzakirə edərkən təhlükəsizlik orqanları uğurlu əməliyyat keçirərək onları zərərsizləşdirib. Faktla bağlı cinayət işi açılıb.

Seçki günü özlərini müşahidəçi kimi təqdim edib 4 rayonda seçkilərə müdaxiləyə cəhd edən 10 xarici vətəndaş saxlanılıb. Avropa.info xəbər verir ki, Türkiyə Daxili İşlər Nazirliyinin yaydığı məlumata görə, Ağrıda 3 Fransa, Şırnakda 3 Almaniya, Batmanda 1, Diyarbəkirdə 3 İtaliya vətəndaşı seçkilərə müdaxilə edərkən həbs olunub. Sözügedən şəxslərin seçkilərə dair akkreditasiya olmadığı və ATƏT müşahidəçisi olmadıqları halda özlərini xarici müşahidəçi olaraq göstərdikləri müəyyən edilib. Həmin şəxslərin xarici ölkələrin xüsusi xidmət orqanlarının əməkdaşları olduqları güman edilir.

Əsasən, kürdlərin yaşadıqları bəzi yerlərdə seçki saxtakarlığına cəhdlər də olub. Şanlıurfanın Suruç rayonunda polis öncədən möhürlənmiş 4 kisə seçki bülleteni aşkarlayıb.

NTV telekanalının verdiyi məlumata görə, polis Suruçun Mızar məhəlləsisindəki bir seçki məntəqəsinə avtomobillə çoxlu sayda möhürlü seçki bülleteni gətiriləcəyi məlumatı əsasında hərəkətə keçib. Polis saxta seçki bülleteni gətirən 27 BSU 52 nömrəli avtomobili saxlamaq istəsə də, avtomobilin sürücüsü qaçmaq istəyib. Polisin havaya atəşi nəticəsində avtomobil saxlanılıb. Avtomobildəki 4 kisə saxta seçki bülleteni müsadirə edilib, 3 nəfər isə saxlanılıb. Saxlanılanların PKK-nın siyasi qolu HDP-nin üzvləri olduğu bildirilir.

Seçkiləri Azərbaycan MSK-sının təmsilçiləri də müşahidə ediblər. “Report”un xəbərinə görə, MSK nümayəndələri seçkiləri ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun (DTİHB) və Türk Şurasının beynəlxalq müşahidə missiyalarının tərkibində izləyiblər. Türkiyədəki seçkilərin müşahidəsinə MSK-nın ümumilikdə 4 təmsilçisi qatılıb.

“Hazırda Ankarada Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) xətti ilə seçkiləri izləyirik. Seçimlər çox yaxşı gedir. Bir neçə məntəqədə də olduq. Heç bir qanun pozuntusu yoxdur”. Bunu Modern.az-a açıqlamasında Türkiyədəki seçkiləri müşahidə edən deputat Musa Quliyev deyib. O bildirib ki, vətəndaşlar seçkilərə çox həvəslə gəlirlər. “İnsanlar seçkilərə kütləvi şəkildə gəlirlər. Beynəlxalq müşahidəçilər də var. Hesab edirəm ki, seçkilər böyük uğurla baş tutacaq. Seçicilər arasında mübarizə gedir. Heç bir qanun pozuntusu halları yoxdur. Mərkəzi Seçki Komissiyasında iqtidar və müxalifət nümayəndələri ilə söhbət etmişik. Heç birində seçki pozuntusu ilə bağlı qeydiyyat yoxdur. Vətəndaşlarla da söhbət etdik. Seçkilərə həvəslə gəlirlər”.

Seçkilərlə bağlı gün ərzində hər hansı məlumat vermək yasaq edilib. Bununla bağlı “Yeni Müsavat”a Türkiyədə yaşayan azərbaycanlı politoloq Toğrul İsmayıl bunları dedi: “Sadəcə, onu deyə bilərəm ki, seçkilərdə aktivlik kifayət qədər yüksəkdir. Məlumat verilməsi yasaq olduğu üçün bizlərdə də dolğun məlumat yoxdur. Bizim yaşadığımız yerdə aktivlik görürük. Bəzi dostlarımızdan gələn xəbərlədən çıxış edərək, bir sıra yerlərdə də aktivliyin olduğunu deyə bilərəm. Amma unutmaq olmaz ki, bunlar zatən aktiv olan bölgələrdir. Seçkilərin bu şəkildə olacağını zatən əvvəlcədən bilirdik. Hər hansı bir xəbərlərin, reportajların yayımlanması doğru deyil. Dediyim kimi, bunlar qanunla yasaqdır. Nəticələri bilməsək də, indiyə qədərki fikirlərimizin üzərində qalıram, ikinci tur ehtimalı kifayət qədər yüksəkdir”.

P.S: Qəzet çapa gedərkən səsvermənin ilkin nəticələri bəlli oldu: 40.1 sayılan bülletenlərin nəticələrinə əsasən Rəcəb Tayyib Ərdoğan - 57,29%, Məhərrəm İncə - 28,12%, Maral Akşənər - 7,48%, 4. Səlahəddin Dəmirdaş - 5,98%, Təməl Qaramolloğlu - 0,94%, Perinçək - 0,18% səs toplayıb.

Parlamentə seçkilər: “Cümhur İttifaqı” - 62,51 (AKP - 49,74, MHP - 12,77), CHP - 17,13, İYİ partiya 8,84, HDP 8.13.

❑ **Cavanşir ABBASLI, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 135 (7024) 25 iyun 2018

**İyunun 25-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) yay sessiyası başlayacaq. Sessiya iyunun 29-dək davam edəcək. Azərbaycan Milli Məclisinin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr Komitəsinin sədri, AŞPA-da daimi nümayəndə heyətinin rəhbəri Səməd Seyidov və bir qrup deputat AŞPA-nın yay sessiyasında iştirak etmək üçün Strasburqa səfərə gediblər.**

# Bu gün AŞ PA-nın yay sessiyası başlayır

## Gündəmdə Azərbaycanla bağlı iki məsələ var; **ekspert:** "11 aprel seçkilərinin müzakirəsi, yəqin ki, baş tutmayacaq, çünki..."



Verilən məlumata görə, sessiyada Assambleya Bürosunun və Daimi Komitənin görülən işlər barədə hesabatı dinləniləcək, AŞ PA-nın yeni prezidenti və vitse-prezidentləri seçiləcək. Sessiya çərçivəsində 11 aprel 2018-ci ildə Azərbaycanda keçirilmiş prezident seçkiləri, Suriyanın qonşu ölkələrində qaçqınların humanitar vəziyyəti, Avropa Şurasına üzv dövlətlərdə insan hüquqları müdafiəçilərinin qorunması, bu ölkələrdə qeyri-hökumət təşkilatlarının fəaliyyəti, İqtisadiyyatda qadınların bilik və bacarıqlarının artırılması, Mədəni irs abidələrinin qanunsuz satışı və dağıdılması mövzularında müzakirələr aparılacaq.

Azərbaycanla AŞ PA arasında son zamanlar münasibətlərin soyuqlaşması bu qurumun yay sessiyasının ölkəmizlə bağlı hansısa qərarlar qəbul edib-etməyəcəyi sualını aktuallaşdırır.

Siyasi ekspert Yeganə Hacıyeva "Yeni Müsavat"a bildirdi ki, AŞ PA-da qəbul olunan məlum korrupsiya layihəsi, istərsə də siyasi məhbus məruzəçisinin təyin edilməsi layihəsinin təşəbbüs qrupu erməni lobbisi və iqtisadi dairələrə xidmət edən lobbi qruplarıdır: "AŞ PA-da bu qrupun eyni mövzu üzrə daha öncəki təşəbbüsləri Azərbaycan nümayəndə heyəti və AŞ PA-nın ədalətli üzvləri, Azərbaycanın dostlarının fəaliyyəti nəticəsində rədd edilmişdi. Həmin anti-Azərbaycan qrup növbəti addım kimi, daha öncəki fəaliyyətlərinin uğursuz nəticəsindən "dərs" götürərək, istintaq qrupunun formalaşmasına və iki ay öncə adi səsvermədə obyektivliyi şübhə doğuran korrupsiya sənədinin qəbul edilməsinə və AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidova, həmçinin Azərbaycanın dostları sayılan bir neçə şəxsə sanksiyalar tətbiq olunmasına nail oldular. Bununla kifayətlənməyən həmin qrup Azərbaycana siyasi məhbuslarla bağlı məruzəçi təyin edilməsi məsələsini, Azərbaycanda keçirilmiş 11 aprel prezident seçkisi məsələsini ortaya atdılar. Ümumiyyətlə, AŞPA-nın prosedur qaydalarına görə, qurumun üzv dövlətlərin seçki proseslərində iştirak etmiş Assambleya missiyasının fəaliyyətinin bir qədər sonra müzakirə olunması uzun illərdir tətbiq olunan bir qaydadır. Adətən bu müzakirələr AŞPA-nın ilin sonunda keçirilən sonuncu sessiyasında birləşdirilərək, ölkələr üzrə ümumi müzakirə olunur. Yəni il ərzində Assambleyanın 3 müxtəlif üzv ölkələr üzrə seçki missiyası fəaliyyət göstərmişsə, bunların hamısı birləşdirilərək bir sessiyada və ya büroda müzakirə olunur.

Bu il Avropa Şurası assambleyasının 6 ölkə üzrə seçki missiyası fəaliyyət göstərib. Bunlardan biri də Azərbaycanda aprelin 11-də keçirilmiş növbədənkənar prezident seçkilərini müşahidə missiyası idi. Bu seçki missiyasının fəaliyyəti digər 6 missiyanın fəaliyyəti ilə birləşdirilərək müzakirə olunmalı, dəyərləndirmə aparılmalı və ümumi bir hesabatda texniki və nəzəri qeydlər edilməli idi. Ölkəmiz üzrə qurumun seçki fəaliyyətinin müzakirəsi bir neçə ay öncəyə çəkilməsəydi biz bunu prosedur qaydalarına görə AŞ PA seçki fəaliyyətinin növbəti məntiqi bir pilləsi kimi qəbul edə bilərdik. Lakin AŞ PA adəti üzrə Azərbaycana yenə də 47 digər üzv dövlətdən fərqli olaraq müstəsna "diqqət" göstərərək, ölkəmizlə bağlı iki mövzu: seçki və siyasi məhbus mövzusu üzrə müzakirə açmaq qərarını qəbul etdi. Burda məntiqi sual yaranır: AŞ PA büro iclası niyə eyni üzv ölkə üçün iki gün fərqlə iki fərqli siyasi mövzuların müzakirəsi üçün qərar qəbul edib? Ən əsası da AŞ PA bürosunun Azərbaycandakı seçki missiyasını digərlərindən fərqləndirərək, bir neçə ay öncəyə çəkmək ehtiyacı haradan yarandı? Məntiqlə, bu qərarı bir iclasda qəbul etmək doğru olmazdımı?

AŞ PA kuluarlarında büronun cəmi 4 % üzvünün, yəni 24 deputatın imzası ilə sessiyanın bir məhsuldar gününün Azərbaycanda "siyasi məhbus" mövzusu üzrə müzakirənin qərarı üçün sərf edilməsi də suallar doğurur. AŞ PA-nın digər üzvləri daxili yazışmalarda xüsusilə keçən il AŞPA-nın yay sessiyasının ölkəmizə həsr olunmuş iclasındakı az iştirakçılıq dərəcəsini xatırladaraq, buradan Azərbaycana qarşı qərəz elementlərinin sezildiyini bəyan edirlər. Bu səbəbdən də AŞ PA bürosu müzakirələrlə bağlı arqumentlərini möhkəmləndirmək üçün prezident seçkilərinin müzakirəsinin də eyni gündə olmasını qərara alıb".

Ekspert hesab edir ki, aprelin 11-də keçirilmiş növbədənkənar prezident seçkilərinin müzakirəsi isə böyük ehtimalla baş tutmayacaq: "Çünki bu müzakirə üçün baza sənədləri, seçkiləri müşahidə etmiş AŞ PA monitorinq missiyasının yekun rəyi hələ təqdim olunmayıb, bu monitorinq missiyasının rəhbər tutduğu ATƏT DTİHB-nin yekun rəyi hələ elan edilməyib. Bu halda isə müzakirələrin predmeti, sadəcə, mövcud deyil və bu istiqamətdə aparılan bütün müzakirələr boş söhbətdən başqa bir şey olmayacaq. Avropa Şurasına üzv olan bir sıra dövlətlərdə, o cümlədən Azərbaycanda QHT-lərin durumunun müzakirəsi isə hansısa ümumi tənqidi sənədin qəbul olunması ilə nəticələnə bilər. Siyasi məhbuslar üzrə məruzəçinin AŞ PA-da təsdiq olunması ehtimalı da mövcuddur. Hər halda Azərbaycan nümayəndə heyəti və Azərbaycana qərəzi olmayan AŞ PA üzvləri, dostlarımız bunun qarşısının alınması üçün addımlar atacaqlar".

❑ **Etibar SEYİDAĞA, "Yeni Müsavat"**

# "Büdcəyə son dəyişikliklər məntiqə və qanuna uyğundur"

## İqtisadçı ekspert səbəblərdən danışdı



**Maliyyə naziri Samir Şərifov parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında deyib ki, büdcə üçün xam neftin 1 barelinin proqnoz satış qiymətinin 45 dollardan 55 dollara artırılması nəzərdə tutulur. Bu ilin dövlət büdcəsində xərclər isə 2 milyard 14 milyon manat artırılır. Yeni dövlət büdcəsinin xərcləri 23 milyard manatdan çox olacaq.**

Məlumatlara görə, Şərq-Qərb dəmir yolu dəhlizinin yenidənqurulması üçün "Azərbaycan Dəmir Yolları" QSC-yə 100 milyon, kənd təsərrüfatına dövlət qayğısının artırılması məqsədi ilə Kənd Təsərrüfatı Nazirliyinə 98 milyon manat ayrılacaq. Təbii fəlakətlərin nəticələrinin daha çevik aradan qaldırılması üçün Fövqəladə Hallar Nazirliyi və turizmin inkişafı üçün Dövlət Turizm Agentliyinin hərəsinə 20 milyon manat ayrılması da nəzərdə tutulub. "Ümid", "Babək", "Qarabağ" yataqlarının işlənməsi üçün isə 663 milyon, ordu xərcləri üçün əlavə təxminən 200 milyon manat ayrılması da planlaşdırılıb.

Maraqlıdır, 2018-ci ilin Dövlət büdcəsində dəyişikliklərin aparılması hansı zərurətdən irəli gəlir? Bu sualla keçmiş maliyyə naziri, iqtisadçı Fikrət Yusifova müraciət etdik.

F.Yusifov bir neçə səbəb göstərdi: "Büdcə sistemi haqqında" Azərbaycan respublikasının qanununun 23-cü - "Dövlət büdcəsinə yenidən baxılma və xərclərə sekvestr tətbiq olunması" maddəsinə uyğun olaraq Dövlət büdcəsinin icrası prosesində onun gəlirləri və kəsirinin maliyyələşdirilməsi üzrə faktiki daxilolmalar müəyyən olunmuş rüblük göstəricilərdən kənarlaşdıqda, dövlət büdcəsinin icrasında ahəngdarlığın, habelə onun gəlirləri və xərcləri arasında tarazlığın pozulması təhlükəsi yarandıqda və həmin halların qanunvericiliyin imkan verdiyi çərçivələrdə dəyişikliklər aparmaq yolu ilə aradan qaldırılması mümkün olmadıqda, may ayının 15-dən tez və oktyabr ayının 15-dən gec olmayaraq cari ilin dövlət büdcəsinə yenidən baxılması barədə Milli Məclisi qarşısında məsələ qaldırıla bilər. Bu zaman nəzərə alınan əsas kriteriyalardan biri büdcənin gəlirləri üzrə proqnozların icrası vəziyyətidir. İlk öncə onu deyək ki, xərclərin artırılmasını nəzərdə tutan dəyişiklikləri etmək üçün büdcəyə əlavə gəlir mənbələrinin müəyyənləşdirilməsi lazımdır. Yəni yeni gəlir mənbələri müəyyən etmədən xərcləri artırmaq mümkün deyil. Bizim halda bu mənbələrdən biri və ən əsası neftin qiymətlərinin büdcədə nəzərdə tutulduğundan 1,7-1,8 dəfəyə qədər yüksəlməsi hesabına əldə edilən gəlirlərdir. Bu imkan verir ki, büdcədə bir barel neft üçün nəzərdə tutulmuş qiymət 45 ABŞ dollarından 55 dollara qədər qaldırılsın. Bu isə büdcəyə əlavə gəlirlərin daxil olması deməkdir. Cari ilin ötən beş ayı ərzində qeyri-neft sektorundan və bütövlükdə Əlavə Dəyər Vergisindən daxilolmalar sahəsində heç bir problem yaşanmayıb və hər iki istiqamət üzrə proqnozlara artıqlamasilə əməl olunub. Bu iki istiqamət üzrə vergi proqnozlarının dürüstləşdirilmiş büdcədə azaldılmasının real səbəbləri isə tamamilə başqadır. Burada söhbət Vergilər Nazirliyinin yeni rəhbərliyinin vergi ödəyiciləri ilə işləri yeni müstəviyə çıxarmasından gedir. Dəyişikliyin mahiyyəti vergilərin yığılmasındakı inzibati metodlardan imtina edilməsi və bunun əvəzində vergi ödəyiciləri ilə vergi yığanlar arasında sağlam bir mühitin formalaşmasından ibarətdir. Vergilər nazirliyinin yeni rəhbərliyinin formalaşdırdığı bu sağlam mühit artıq öz bəhrəsini verib və qeyd etdiyimiz kimi bu da öz növbəsində vergi proqnozlarının artıqlamasilə icra olunmasına imkan yaradıb. Azalmalar isə vergi ödəyicilərinin artıq ödəmələrini balanslaşdırmaq məqsədilə edilib.

Büdcənin artırılan xərclərində SOCAR-a büdcədən vəsait ayrılması məsələsinə gəlincə, ekspert bunları dedi: "Bu gün SOCAR Azərbaycanın ən böyük dövlət şirkətidir. Azərbaycan hökumətinin son 20 ildə reallaşdırdığı regional əhəmiyyətli ən böyük layihələr bilavasitə SOCAR-n iştirakı ilə həyata keçirilibdir. Azərbaycanın iqtisadi qüdrətinin formalaşmasında SOCAR-n rolu əvəzolunmazdır. İndi bu şirkəti bütün dünyada tanıyırlar. Şirkət bu gün bir çox ölkələrdə böyük layihələr reallaşdırır və bu imkan verəcək ki, yaxın gələcəkdə SOCAR transmilli bir korporasiyaya çevrilsin. Hədəflər çox böyükdür. Bu mərhələdə ona dövlətin dəstək verməsini tam təbii və normal qarşılamaq lazımdır. Hökumət və onun büdcəsi yaxın gələcəkdə indi göstərdiyi maliyyə dəstəyinin qarşılığını bu dövlət şirkətindən on dəfələrlə artıq ala biləcək. Büdcən müdafiə ilə bağlı xərclərin 166,5 milyon manat artırılması müharibə vəziyyətində olan bir ölkə üçün tam başadüşüləndir. Dağlıq Qarabağ probleminin həllində ikili standartların yaratdığı zor durumda bizim özümüzə, öz gücümüzə güvənməkdən başqa yolumuz yoxdur. Sosial müdafiə xərclərinin145,8 milyon manat artması isə bu ilin əvvəlindən əmək haqlarının və pensiyaların artırılması nəticəsində yaranan əlavə xərcləri örtməyi nəzərdə tutur. Bir sözlə 2018-ci ilin Dövlət büdcəsində edilən dəyişikliklər məntiqə və qanuna tam uyğundur".

❑ **Ləman MUSTAFAQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 135 (7024) 25 iyun 2018

**Son illərdə qeyri-neft sektorunun, əsasən də kənd təsərrüfatının inkişafı dövlət üçün mühüm əhəmiyyət daşımağa başlayıb. Ölkə prezidenti İlham Əliyevin bu məsələnin üzərində ciddi şəkildə dayanması, verdiyi sərəncamlar, ayrılan vəsaitlər buna əyani sübutdur. Kənd təsərrüfatının ən müxtəlif sahələri üzrə inkişafı üçün konkret addımlar atılıb.**



# Misqal-misqal toplanan əvəzsiz sərvət

## Azərbaycanda arıçılıq inkişafda, arı ailələrinin sayı 300 minə çatıb

Bu addımlardan biri də "Azərbaycan Respublikasında arıçılığın inkişafının stimullaşdırılması haqqında" Prezidentin Sərəncamıdır. Ölkədə arıçılığın inkişafının stimullaşdırılması, kənd yerlərində kiçik sahibkarlığın dəstəklənməsi və məşğulluğun təmin edilməsi məqsədi ilə 5 mart 2018-ci ildə imzalanan Sərəncam arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə görə 2018-ci il də daxil olmaqla 5 il müddətində ildə 10 manat məbləğində subsidiya ayrılmasını nəzərdə tutur.

Sərəncamda Nazirlər Kabinetinə arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə görə subsidiya verilməsi qaydasını Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etmək tapşırılıb.

Kənd Təsərrüfatı Nazirliyinə isə Dövlət Statistika Komitəsi ilə birlikdə arı ailələrinin ilin əvvəlinə və sonuna sayı, verilmiş subsidiyanın məbləği, habelə bal istehsalı həcminin dinamikası barədə ildə bir dəfə Azərbaycan Prezidentinə məlumat təqdim etmək, yüksək məhsuldar bal arılarının yetişdirilməsi və arıçılıq məhsullarının istehsalının artırılması üçün arıçılıqda seleksiya-damazlıq işinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görmək həvalə edilib.

Bununla yanaşı, ölkədə arıçılığı inkişaf etdirmək məqsədi ilə son illərdə bir sıra digər tədbirlər həyata keçirilib. Belə ki, Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi Tədqiqat İnstitutunun nəzdində Arıçılıq Mərkəzi yaradılıb, habelə Azərbaycan Arıçılar Assosiasiyası təsis edilib. Hazırda damazlıq arıçılıq təcrübəsinin genişləndirilməsi, genofond arıxanaların yaradılması, arıçılıq məhsullarının keyfiyyətinə nəzarət sisteminin təkmilləşdirilməsi, arıçılıq məhsullarının sərgi-satış yarmarkalarının təşkili və s. istiqamətlərdə məqsədyönlü tədbirlər görülür. Bu tədbirlərin nəticəsi olaraq, arı ailələrinin sayında, bal və digər arıçılıq məhsullarının istehsalında və bal ixracında əhəmiyyətli artım müşahidə edilir.

Azərbaycan Respublikasında arıçılığın təşkilinin hüquqi və iqtisadi əsasları 2009-cu ildən qüvvədə olan Arıçılıq haqqında Qanunla tənzimlənir. Akademik F. Məlikov adına Azərbaycan Elmi Tədqiqat Heyvandarlıq İnstitutunda arıların çoxalması və saxlanılması, Gəncə Dövlət Universitetinin botanika kafedrasında arıçılığın yem bazası öyrənilir.

Azərbaycan Elmi Tədqiqat Baytarlıq İnstitutunun arı xəstəliklərini öyrənən laboratoriyasının əməkdaşları arıxanaların bir çox xəstəliklərə görə sağlamlaşdırılması sahəsində xeyli iş görüblər. Atılan bu addımlar ölkəmizdə arıçılığın sürətlə inkişafına təkan verib. Bunu ümumi araşdırmamız və bölgələrimizdəki bir neçə arıçılıq təsərrüfatında olaraq təsərrüfat rəhbərlərindən əldə etdiyimi məlumatlar da təsdiq edir.



Azərbaycan Arıçılar Assosiasiyasının vitse-prezidenti, böyük arıçılıq təsərrüfatlarından birinin sahibi Sabir Mustafayev bizimlə söhbətdə bildirdi ki, arıçılıq aqrar sektorun ekoloji baxımdan da ən təhlükəsiz sahələrindən biridir. Arıçılığın inkişafı ilə bağlı görülən işlər artıq öz bəhrəsini verir. Azərbaycanda arıçılıq təsərrüfatları-bal arılarının yetişdirilməsi, saxlanması, arıçılıq məhsullarının istehsalı və dövriyyəsi ilə məşğul olan subyektlərin sayı getdikcə artır. Bu isə arıçılıq məhsullarının-bal, mum, bərəmum, arı zəhəri, arı südü, çiçək tozu, güləm, ana arı, arı beçəsinin də artımı deməkdir.

Təsərrüfat rəhbərinin sözlərinə görə, arıçılıqda damazlıq işi mühüm rol oynayır: "Hazırda xəstəliklərə qarşı birgə mübarizə aparılır. Beçəyə meyilli olmayan ana arılar seleksiya edilir. Azərbaycan üçün ən yaxşı arı növü "Boz Qafqaz" cinsidir. Aran yerlərində məhsuldarlıq daha yaxşı olur, nəinki dağ yerlərində. Çünki dağlıq ərazilərdə yağıntılar çox olur və arıların işləməsinə mane olur. Bu il Zaqatala, Balakən zonasında yağışlar məhsuldarlığı aşağı salıb. Astara, Masallı, Lənkəran bölgəsində məhsuldarlıq yüksəkdir, artıq may balını süzüblər".

Həmsöhbətimiz şəxsi arıçılıq təsərrüfatının məhsuldarlığını arı ailələrinin dislokasiyasını ilin müxtəlif aylarında həyata keçirməklə də artırır: "Gördüyünüz kimi, hazırda İsmayıllı rayonunda Girdman çay vadisində yerləşmişik. Bura üçüncü yerimizdir köçmüşük. Yaxınlarda arıları Daşkəsənə köçürəcəyik".

S.Mustafayev onu da bildirdi ki, hər arı ailəsinə dövlətin ildə 10 manat maddi dəstək ayırması prezidentin arıçılığa ciddi dəstəyidir: "Belə bir təkliflə bizim Assosiasiya keçən il sentyabrda kənd təsərrüfatı naziri ilə görüşümüzdə çıxış etmişdi. Prezident sağ olsun təklifi müsbət dəyərləndirdi. Həmin vəsaitin arıçılara çatdırılması üçün xeyli vaxt tələb olunur. Belə ki, arı ailələrinin yoxlanması, sayının müəyyənləşdirilməsi lazımdır. Arı ailələri kodlanacaq və bundan sonra vəsait veriləcək. Bu iş mayın axırında yekunlaşmalıydı, bir qədər uzandı, səbəblərindən biri mövsümlə bağlı təsərrüfatların yerlərini dəyişməsidir. Məsələn elə arıçılar var ki, təsərrüfatını beş yerə bölüb. Yəqin payıza bu məsələ yekunlaşacaq".

Tanınmış arıçı onu da qeyd etdi ki, arıçılığın inkişaf etdirilməsi kənd əhalisinin gəlirlərinin artmasına və məşğulluğunun təmin edilməsinə töhfə verir: "Hər ilin payızında Bakı şəhərində arıçılıq məhsullarının respublika sərgi-satış yarmarkası təşkil edilir. Keçən il satış yarmarkasında 333 arıçı öz məhsulunu satışa çıxarıb, bu isə əvvəlki ildəkindən 78 nəfər çox idi. Yarmarkada 400 tona yaxın bal satılıb. Sərgi-satış yarmarkası həmçinin yeni arıçılar nəslinin yetişməsində və bu sahənin daha da intensiv inkişaf etməsinə ciddi təsir göstərir. Yarmarkanı keçirməkdə məqsəd təkcə arıçılıq məhsulları satmaqdan ibarət deyil, təcrübə mübadiləsi aparmaq, arı xəstəliklərinə qarşı mübarizə tədbirlərini öyrənmək, seleksiya-damazlıq işlərinin təşkilinə diqqət yetirmək, gənc arıçılara minimum biliklər vermək, elmi-praktiki konfrans keçirmək və digər məsələləri arıçıların nəzərinə çatdırmaqdır.

2017-ci ildə Azərbaycanda 3000 ton bal istehsal edilib. Ötən il ölkədə 5000 ton bal istehlak olunub. Hazırda daxili istehsal Azərbaycanda bala olan tələbatın 60 faizini təmin edir. Qalan həcm xaricdən idxal edilir. Hazırda ölkədə 300 min arı ailəsi var. Ölkənin potensialını nəzərə alaraq, arı ailələrinin sayını 700 minə çatdırmaq planlaşdırılır. Bu, bal idxalından asılılığı tamamilə aradan qaldırmağa və ixrac coğrafiyasını artırmağa imkan verəcək".

S.Mustafayev onu da məlumat verdi ki, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı (FAO) Azərbaycan Kənd Təsərrüfatı Nazirliyi ilə birgə "Ekoloji təmiz arı məhsullarının sertifikatlaşması" adlı layihəyə başlayacaq. Layihənin maliyyə dəyəri 1 milyon manata yaxındır və FAO tərəfindən maliyyələşdiriləcək. İlkin mərhələdə arıçıların maarifləndirilməsi ilə bağlı iş həyata keçiriləcək, onlara ekoloji təmiz sertifikatlaşma ilə bağlı məlumatlar veriləcək.

Ağsu rayonunda Mobil Mustafayevə məxsus arıçılıq təsərrüfatında da olduq. Burada da gördüklərimiz və təsərrüfat rəhbərindən eşitdiklərimiz bu sahənin perspektivi ilə bağlı böyük ümidlər yaradır. M.Mustafayev bildirdi ki, 2010-cu ildən burada arıçılıqla məşğuldur. İlk illərdə bir sıra çətinliklərlə üzləşsə də get-gedə işlər necə deyərlər relsə düşüb. Arıçının dediyinə görə, təmiz, keyfiyyətli bala daim tələbat var. O arıçının ki, satışa çıxardığı məhsulun keyfiyyət göstəricisi istehlakçını məmnun edir həmin arıçının daimi müştəriləri yaranır. Məhsulun satışında isə çoxlu sayda daimi müştərilərin olması mühüm amillərdən biridir.

Həmsöhbətimiz onu da məlumat verdi ki, son bir neçə ildə Ağsu rayonunda arıçılıq təsərrüfatlarının sayında əməlli-başlı artım olub: "Əvvəllər bu rayonda arıçılıqla məşğul olanlar elə də çox deyildi. Elə kəndlər var idi ki, bir dənə də olsun arı saxlayan yox idi. Ancaq son illərdə vəziyyət müsbətə doğru dəyişib. Bu gün demək olar ki, rayonun bütün kəndlərində arıçılıqla məşğul olanlar var. Hamısı iri təsərrüfat olmasa da kiçik də olsa mövcuddurlar. Dövlətimizin bu sahəyə dəstəyi artdıqca bugünkü kiçik təsərrüfatlar da bir neçə ilə böyüyəcək. Hörmətli prezidentimizin bu ilin martında hər arı ailəsi üçün ildə 10 manat yardım verilməsi barədə sərəncamı bizdə ümid yaradıb ki, dövlətimiz bu sahəyə dəstək verməkdə qərarlıdır. Ümid edirik ki, əlaqədar hökumət qurumları prezidentin sərəncamında nəzərdə tutulan vəsaitin arıçılara çatması üçün işlərini yaxın vaxtlarda başa çatdırarlar".

M.Mustafayevin dediyinə görə, Ağsu rayonunun dağlıq ərazilərində Qaratikan meşələri çoxluq təşkil etdiyi üçün burada istehsal olunan bal qaratikan balı olaraq tanınır. Qaratikan balının isə ən keyfiyyətli bal olduğu hər kəsə məlumdur.

Söhbət etdiyimiz arıçının məşğul olduğu sahə ilə bağlı praktiki və elmi bilikləri də xoş təəssürat yaradır. M. Mustafayev bildirdi ki, Azərbaycanın arı genofondunu iki arı növü - Bozdağ Qafqaz arısı və Sarı İran arısı təşkil edir. Qüvvəsi, yəni işçi arı sayı çox olan arı ailəsi ildə 20 kilodan artıq bal verə bilir: "Bu, arının növündən, yerləşdiyi ərazinin əlverişli olub-olmamasından, mövsümdə hava şəraitindən də xeyli dərəcədə asılıdır. Arılar dünyanın ən zəhmətkeş, ən nizam-intizamlı canlısıdır.

Bal qiymətli qida məhsulu olmaqla yanaşı, həm də insanların xəstəliklərinin müalicəsində uğurla tətbiq edilir. Mum sənayenin 40-dan artıq sahəsi, o cümlədən, metallurgiya, radiotexnika, avtomobil, aviasiya, kimya üçün qiymətli xammaldır. Mum təbabətdə müxtəlif məlhəmlərin, plastirların və sair hazırlanmasında, mumdakı efir yağları isə ətriyyat sənayesində tətbiq olunur.

Vərəmum - buna arı yapışqanı da deyirlər - bir çox lakların istehsalında əvəzedilməz xammaldır. Son vaxtlar vərəmum təbabətdə geniş işlədilir. Arıların çiçəklərdən topladığı çiçək tozu zülal və vitaminlərlə zəngin olduğundan ondan pəhriz və bioloji stimullaşdırıcı kimi istifadə edilir. Çiçək tozunun tərkibində çoxlu miqdarda protein, sulu karbonlar, antibiotiklər, karotin, C vitamini, B, D, E vitaminlər qrupu var. Bunlardan əlavə çiçək tozunun tərkibində fosfor, kalsium, maqnezium, dəmir və başqa mikroelementlər var.

Arı südü təbabətdə işlədilir. O maddələr mübadiləsini və qan dövranını normallaşdırır. İnsan orqanizminə daxil olan arı südü ona gümrahlıq verir, iştahı artırır və orqanizmdəki nasazlıqları aradan qaldırır. Arı zəhərindən isə revmatizmin, infeksion poliartritlərin, sinir sistemi xəstəliklərinin müalicəsi üçün dərman preparatları hazırlanır".

Beləliklə, apardığımız araşdırma ölkəmizdə daha bir kənd təsərrüfatı sahəsinin inkişafda olduğu mənzərəsini ortaya çıxardı.

**Qeyd:** *Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun keçirdiyi müsabiqəyə təqdim etmək üçün.*

❑ **Etibar AĞAYEV**

YENİ MÜSAVAT
N 135 (7024) 25 iyun 2018

**Gədəbəyin bitib-tükənməyən problemləri var. Rayonda meşələrin qırılmasının əsas səbəbi məmur hərisliyi, Ermənistanla həmsərhəd kəndlərin qazlaşdırılmamasıdırsa, əhalinin maddi durumunun aşağı olmasının başlıca səbəblərindən biri də yolsuzluqdur. Rayon mərkəzindən 5 addım kənar atdınsa, toz-tozanaq, kələ-kötür yollar sakinlərin həyatını qaraldır.**



# Gədəbəyin sərhəd kəndlərində acınacaqlı durum

## Rayon sakinləri deyirlər ki, onlar qış aylarında orta əsrlərdəki kimi yaşayırlar

İllərdir ki, Gədəbəy əhalisi yolsuzluqdan əziyyət çəkir. İlin hansı fəsli olması şərt deyil, yağış yağdısa, dolu duşdüsə, rayon mərkəzi ilə kəndlərin əlaqəsi kəsilir. Rayonun əksər kəndləri çayların kənarında yerləşir deyə su səviyyəsi qalxdısa, kəndlərə getmək mümkünsüz olur. Çayların üzərindəki körpülərin durumu son dərəcə acınacaqlıdır. Nəinki müasir, heç ötən əsrin sonlarında olan standartlara da uyğun deyil. Bu yerlərdə minik maşını körpünün üstünə çıxanda insanlar dərhal Allahı çağırır. Gədəbəydə belədir, mərkəzdən çıxdın, dağ boyda yol problemini aşmalısan. Bu da sakinlərin yaşayış durumunu olduqca çətinləşdirir. "Yeni Müsavat"ın reportyor qrupu olaraq bu problemlə üz-üzə qalan bəzi kəndlərdə olduq.

Novosaratovka sakinləri deyirlər ki, hər dəfə yağış yağandan sonra güclü sel daşqınları nəticəsində kəndlər arasında gediş-gəliş günlərlə kəsilir. Bu zaman isə sakinlərin köməyinə bu yerlərin vazkeçilməzi olan "Villis"lər çatır. Belə bir miniklə Novosaratovkaya çatar-çatmaz, xəbər gəldi ki, dağlara dolu düşüb, bəs olan-qalan yol bağlanıb. Rayon mərkəzindən Novosaratovkaya bizi aparan "Villis"in sürücüsü isə kefini pozmadan yoluna davam etdi. Yol adlanan dərə-təpələri, daş-kəsəklə dolu cığırları aşıb kəndin kənarındakı bir körpünün yanına çatdı. Maraqlı idi ki, körpü çayın üzərində deyil, çayın məcrasında axın istiqamətinə uzanırdı. Belə aydın oldu ki, körpü Şahdağ kəndini də yolun bu üzü ilə birləşdirmək üçün qurulubmuş...

Sürücü dedi ki, həmin körpünün bu şəklə düşməsinin çox maraqlı bir tarixçəsi var. Bizlərə maşındakı tutacaqlardan möhkəm yapışmağı tövsiyə edib çay aşağı hərəkəti davam etdirdi. Dedi ki, çaya girəndə ehtiyatı əldən verməyək, maşını çay aparassa, təlaşa düşməyib özümüzü maşından çay kənarına ataq. Çaydan keçəndə suyun maşının içində dizimizə qədər qalxa biləcəyi xəbərdarlığını da etdi. Vəziyyət getdikcə qəlizləşirdi. İstəmədən ekstremal idman yarışmasının zorən iştirakçılarına çevrilmişdik. Nəhayət sürücü sükanı cəld hərəkətlə çaya tərəf çevirdi, bir anın içində maşın qayıq kimi ləngər vurub o yan bu yana çalxalandı. Həmin an sürücü qışqıraraq nəsə deyirdi, səsi mühərrikin uğultusuna qarışdığından onu başa düşmək olmurdu. Sürücü əvvəlcədən demişdi ki, nə qədər təhlükəli olsa da, sel daşqınını yalnız bu avtomobil yarıb keçə bilir. Sahilə çıxanda onun sözlərini bir daha xatırladım. Sürücü çayı keçərkən dediyi sözləri təkrarladı, məlum oldu ki, bəzən daşqın o qədər güclü olur ki, "Villis" də köməyə çata bilmir.

Yolsuzluq problemindən ən çox əziyyət çəkən kəndlər düşmənlə burun-buruna dayanan Yenikənd, Çobankənd, Şahdağ və Arabaçı kəndləridir. 2 il öncəyə qədər vəziyyət daha acınacaqlı olub. Belə ki, Novosaratovka kəndindən başlayaraq 1992-ci ildə ermənilərdən alınan Başkəndə qədər bütün yollar eyni taleni yaşayırmış. Yalnız prezidentin müvafiq sərəncamından sonra Saratovka-İvanovka yolu qismən də olsa asfaltlanıb. Asfalt İvanovka kəndində Xırman adlanan yerə qədər nəzərdə tutulsa da, kəndin orta hissələrində dayanıb. Amma bununla belə bu yola asfalt çəkilməsi yol kənarında yerləşən kəndlərin vəziyyətini bir qədər də olsa yaxşılaşdırıb. Lakin bu yolla aralarından çay axan kəndlərin durumunda müsbətə doğru nəinki irəliləyiş olub, əksinə vəziyyət daha da pisləşib. Bu problemlə bağlı tragikomediyanı xatırladan hadisə Şahdağ kəndində yaşanıb. 2005-ci illərdə Gədəbəyin icra başçısı olan Nazim Veyisovun vaxtında bu kəndi 2 hissəyə ayıran çayın üzərində körpü tikilib. Kənd bələdiyyəsinin hesabına tikilən körpünün açılışına icra başçısı şəxsən təşrif buyurub. İcra başçısı körpünün açılışını bildirən lenti kəsib, bir xeyli inkişafdan danışıb, körpünün əhəmiyyəti haqda bir dastanlıq nitq xitab edib. Sakinlər əl çalıb, körpü tikənləri alqışlayıblar. Sakinlər deyir ki, körpünün açılışı yerli bələdiyyə sədrinə çox baha başa gəlib. Belə ki, icra başçısının şərəfinə elə körpü yaxınlığındakı səfalı bir yerdə kabab çəkilib, axşama qədər davam edən kef məclisi olub.

Maraqlısı odur ki, körpünün ömrü uzun çəkməyib.

Başçı körpünü açıb. Üzərindən kəndə tərəf keçib, gedib yeyib-içib, qayıdandan sonra dağlara dolu düşüb. Nazim Veyisov mərkəzdəki rahat malikanəsinə çatar-çatmaz dağlara yağan güclü yağış kəndi selə boğub, çayda suyun artması körpünün istiqamətini dəyişib; onu çevirib çayın axını istiqamətində. Bu gün həmin körpü çayın üzərində deyil, çayın kənarında axın istiqamətində qalıb. Ərəziyə ağır texnikanın gəlməsi o dərəcədə çətindir ki, illərdir durum dəyişmir.

Şahdağ sakinləri bildirirlər ki, körpüsüzlük, yolsuzluq kəndin böyük problemlər içində çabalamasına yol açan əsas amillərdir. Kəndə kiminsə xəstəsi olanda, rayon mərkəzində mənzil kirayələyib orada qalmaq məcburiyyətini yaşayırlar. Kəndlərdə tibb məntəqələri yox səviyyəsindədir, olanların qapısı illərdir bağlıdır. Hətta indiyə qədər bu problem ucbatından həyatı itirən sakinlər də olub. Sakinlər Şahdağ və ətraf kəndlərin xəstəxana problemindən əziyyət çəkmələrinin başlıca səbəbkarı kimi rayonun keçmiş icra başçısı Kamran Rzazadənin adını çəkirlər. Belə ki, əvvəllər İvanovka kəndində xəstəxana olub. Bu xəstəxananı Rusiyada biznеslə məşğul olan Ruslan adlı kənd sakini öz şəxsi hesabına tikdiribmiş. Həmin şəxs kənddə futbol stadionunu da tikdirərək, hər ilin yayında rayonun kəndləri arasında yarış keçirirmiş. Gələcəkdə rayonunun futbol klubunu yaratmaq niyyəti var imiş. Başçının çempionatı keçirmək istəyi onu Ruslanla şəxsi intriqa aparmağa qədər endirib. Hətta sonunda həmin stadionunda yarış keçirilməsini də qadağan edib. İcra başçısı ilə biznesmen arasındakı bu çəkişmənin qurbanı kəndin xəstəxanası olub. Başçı həmin kənddə doğulmasına, boya-başa çatmasına baxmayaraq, xəstəxananı bağlatdırıb. Bundan sonra sakinlərin yolsuzluq, körpüsüzlük, qazsızlıq dərdlərinin sırasına xəstəxana dərdi də əlavə olunub.

Kəndlərdəki yol-körpü problemi şagirdlərin təhsil almalarına da ciddi mane olur. Sel daşqınları zamanı orta məktəblərlə aralarından çay keçən kəndlərin əlaqəsi kəsilir, şagirdlər dərs buraxmaq məcburiyyətində qalırlar. Sakinlər deyirlər ki, qış fəslində sözün həqiqi mənasında onlar orta əsrlər dövründəki kimi yaşayırlar. Kəndlərdə əlaqə tamam kəsilir. Sakinlər deyirlər ki, bəzən övladlarını qış fəslində bir aya yaxın dərsə göndərə bilmirlər.

Bu problemi yaşayan kəndlərin sürətlə boşaldığının da şahidi olduq. Ağır yaşayış sakinləri Bakıya və digər müxtəlif ərazilərə üz tutmağa məcbur edir. Xüsusilə, gənclər nicat yolunu kənddən çıxmaqda görürlər. Bakıdan Saratovka, İvanovka kəndlərinə avtobuslar adambaşı 10 manata aparır. Rayon mərkəzində Bakıdan gəlmiş avtobusdan düşən düşmənlə həmsərhəd kəndlərin sakinləri mənzilbaşına çatmaq üçün də əlavə 10 manat və daha artıq xərcləməlidirlər. Rayon daxilində sərnişindaşımanın belə bahalı olmasının 1 səbəbi var - yol yoxdur, olanlar da bərbad durumdadır.

İndiyə qədər dəfələrlə bu problemlərin hər birinin həlli ilə bağlı rayon rəhbərliyinə müraciət edilsə də, bəhrəsi olmayıb. Rayona rəhbərlik edən icra başçıları şikayətləri bir qulaqlarından alıb digərinə ötürüblər...

❑ **"Yeni Müsavat"ın Reportyor qrupu**











# Süni günvurma

Zamin HACI
zaminhaci@gmail.com

"Yaxşı, sabah qaloşlarınızı görüm hardan tapırsınız, çox hörmətli Filipp Filippoviç, - o, fikirləşdi - "iki cüt almağa məcbur oldunuz, bir cüt də alarsınız"

*(Mixail Bulqakov, "İt ürəyi")*

****

Sovet vaxtı biz pambıq pripiskası ilə bütün ittifaqda tanınırdıq. Hərçənd, indiki cavanlar heç bu "pripiska" sözünü qanmayacaqdır. Doğrudan da o dövrü yaşamayanlar üçün bəzi terminləri anlatmaq olduqca çətindir. Örnək üçün, sovxoz sözünü necə izah edəsən? Kolbasa növbəsi nədir, lezva tapmayan camaat Veneraya niyə gəmi göndərirdi, ispalkom nə deməkdir və sairə. Yaxud, gənc adama başa sal ki, o vaxtın dissidenti başının üstündən partiyanın rəhbərlərindən birinin portretini asırmış... Çətindir. Yaşamasan, görməsən SSRİ kimi əcaib quruluşu başa düşmək mümkünsüz görünür.

Həmin bu "pripiska" yalandan istehsal rəqəmlərini şişirtməyi bildirirdi. 200 min ton pambıq yığırdınsa, bunu kağızda 1 milyon göstərirdin. Realda sahədə 300 ton üzüm olurdusa, sən planın yerinə yetirilməsi raportunda 1000 tondan dəm vururdun. Elə həm də bu uydurma rəqəmlər, iqtisadiyyatın yalanla gübrələnməsi üzündən eşşək boyda kommunist imperiyası bir-iki ilin içində palçıq daxma kimi ovulub töküldü. Çünki hər şey yalan idi: xalqın hakimiyyətindən iqtisadi rəqəmlərə, xalqlar dostluğundan fəhlə-kəndli birliyinə qədər hər bir şey saxtakarlıqdan başqa bir şey deyildi.

Təzədən o günləri xatırlamağım isə son pambıq tarlası zəhərlənmələrinin nəticəsinə görədir. Daha doğrusu, hakimiyyətin movqeyinə görə. Prokurorluq, Qida Təhlükəsizliyi Agentliyi və yanılmıramsa Kənd Təsərrüfatı Nazirliyinin birgə bəyanatında təxminən belə yazılmışdı: "Bir çox şəxslər kompensasiya almaq üçün özlərini yalandan zəhərlənmiş göstərərək xəstəxanalara uzanıblar".

Bəli. Məsələ budur. Həmişəki kimi. Hərçənd, niyə gecikdilər? Dövlət orqanları qabaqcadan bu variantı deyə bilməzdilərmi? Görünür uzun zaman hakimiyyətdə qalmaq bəzi yoldaşlarda ayıq-sayıqlığın itməsinə gətiribdir, arxayınçılıq onları basıbdır, stabilliyin pozulması cəhdlərinə gec reaksiya verirlər. Beş-on il qabaq olsaydı o pambıqçıların var-yoxunu (general Ərziman müəllim demişkən) dərhal içəri basar, lazımi ifadələr alaraq Yaponiya imperialist dairələrinin agenti olduqlarını isbat edərdik.

Kəmfürsət millətdir. Hər vasitə ilə çalışırlar dövlətdən nəsə qoparsınlar, elə bil dövlət əmlakı, dövlət büdcəsi bunların dədəsindən qalıbdır. Sanki Azərbaycanın sərvətləri bunlara məxsusdur. Vallah, bunlar tarladan zəhər kompensasiyası istəyə-istəyə bir də görərsən neftin puluna tamah salıblar. İştah diş altındadır. Əfruz xala demişkən, "döyəcsən məni!?"

Nəinki yalandan zəhərlənmə, ardıyca bəzi tarlalarda günvurma diaqnozuyla xəstəxanaya uzananlar oldu. Zəhər bəhanələrinin üstünü vaxtında açmışıq axı. İndi də Günəşi bəhanə edirlər, pambıq becərməyin dərdindən nə desən uydururlar. Yaxşı, lap hesab edək günvurma var. Bəs məmurlarımızı niyə gün vurmur? Siz heç hansısa nazirin istidən xəstəxanaya düşdüyünü, xaraba Almaniyaya müalicəyə aparıldığını eşitmisiniz? Bəyəm onlar ayrı Günəşin altında yaşayırlar? Aydın məsələdir, hamısı yalandır, dövlətçiliyə xəyanətdir, erməni təbliğatına uymaqdır, düşmən dəyirmanına su axıtmaqdır, pambıqla baş kəsməkdir.

Özlərini çox məğmun, yazıq, fağır göstərirlər. Qışda istiliyin, qazın, işığın yoxluğundan şikayətlənirlər, yayda Günəşdən. Hamısı da kompensasiya üçün. Yazda deyirlər yumurta bahadır, payızda cücələri sayırlar. Heç ipinin üstünə odun yığılası millət deyil. Sözgəlişi, elə millət özü də özünün hansı yuvanın quşu olduğunu tarixən dərk edərək maraqlı ata sözləri qayırmışdır. Örnək üçün, "Sizin aranızda ala qarğa bala çıxartmaz", "El bərəkallahı qarın cırar", "Bir su ki, səni aparır, deynən Arazdır" və sairə. Xüsusən axırıncı məsəl prokurorluğun bəyanatının nə qədər əsaslı olduğunu, necə tarixi köklərə dayandığını göstərir.

İntəhası mən bilmədim o 5 nəfər pambıqzavod müdirini-zadı niyə zindana saldılar. Yəqin onlar da özləri qəsdən türməyə girərək Avropa Şurasında bizim siyasi dustaq sayını süni artırmaq fikrindədirlər. Neyləyəsən, hər cür yaramaza rast gəlirik...




# Əsrin güc nümayişi: Azərbaycan və Türkiyədən möhtəşəm "performans"

Sabah Bakıda müstəqillik dönəminin ən böyük paradı keçiriləcək; "Türk şahinləri" paytaxt səmasında süzəcək, 100 ildə ilk dəfə Türkiyə hərbçiləri Azadlıq meydanında keçid edəcək; dünya Bakıdan son Qarabağ mesajını alacaq; nəzərlər Azərbaycanda...

**Sabah paytaxtımızda Azərbaycan Silahlı Qüvvələrinin, o cümlədən Xəzər Hərbi Donanmasının möhtəşəm paradı keçiriləcək. Budəfəki tədbirlə bağlı çox ciddi hazırlıq işi görülüb və iyunun 26-da onun yekununu Azərbaycan xalqı ilə yanaşı, dost-düşmənlərimiz və təbii ki, işğalçı Ermənistan da görəcək.**

Paradda Türkiyədən qırıcıların - "Türk şahinləri"nin də iştirakı gözlənilir. Bundan əlavə, 100 ildə ilk dəfə (!) Türkiyə hərbçiləri paradda keçid edəcəklər. Bu, iki qardaş ölkənin dostluq və müttəfiqliyinin əbədiliyini, yenilməzliyini simvolizə eləməklə yanaşı, dünyadakı antitürk çevrələrə Azərbaycanın tək olmadığının aydın mesajı olacaq (İlk dəfə 100 il öncə - 1918-ci ilin sentyabr ayında, Bakı bolşevik-daşnak qüvvələrindən azad edildən sonra keçirilən hərbi paradda Osmanlı hərbçiləri iştirak ediblər), faktiki, həm də iki qardaş dövlətin ortaq güc nümayişi olacaq.

*****

"Yeni Müsavat" xatırladır ki, Bakıda öncəki hərbi parad 5 il öncə - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 95 illiyi ilə əlaqədar keçirilib (Müstəqillik dövründə cəmi 4 hərbi parad olub). Azadlıq meydanındakı sonuncu paradda 5 min əsgər, 300-dən çox hərbi texnika və silah, 100-dən çox hərbi hava aparatı və helikopter və 40-a yaxın gəmi və qayıqlar nümayiş etdirilmişdi. O cümlədən ilk dəfə olaraq, yerli istehsal olan pilotsuz qırıcı təyyarə, zenit raket sistemləri, minaatan sistemlər və "U" zenit-raket kompleksləri göstərilmişdi.

Sabahkı parad əvvəlkilərdən fərqli olaraq, heç şübhəsiz ki, Azərbaycanın xeyli dərəcədə böyümüş hərbi arsenalının və qüdrətinin göstəricisi olacaq və Azərbaycan Silahlı Qüvvələrinin yaranmasının 100 illiyinə həsr olunduğu üçün ən möhtəşəm güc nümayişi kimi tarixə öz damğasını basacaq.

Sabah Azərbaycan öz hərbi parkındakı ən müasir döyüş maşınları və silah sistemlərini parada çıxarmaqla işğalçı Ermənistan üzərində əzici hərbi üstünlüyə nümayiş etdirmiş olacaq. İşğalçı ölkə Azərbaycanla silahlanma yarışında heç vaxt rəqabət aparmaq imkanında ola bilməyəcəyinə, ordumuzun istənilən an öz ərazilərini qısa zamanda işğaldan azad etməyə qadir olduğuna əminlik hasil edəcək. Paradın əsas əhəmiyyəti də bundan ibarətdir - "əsrin güc nümayişi".

*****

"Azərbaycanın Silahlı Qüvvələri üçün yeni dağıdıcı silahlar alınıb". Bunu parad ərəfəsi müdafiə naziri Zakir Həsənov deyib. O, habelə bütün döyüş maşınlarının yeniləndiyini söyləyib: "Yeni tanklar, yeni piyadaların döyüş maşınları, döyüşlərdə istifadə olunan yeni zirehli maşınlar alınıb. Bütün bu texnikalar iyunun 26-da keçiriləcək hərbi paradda nümayiş etdiriləcək".

Z. Həsənov həmçinin, bu gün ordumuzun ən müasir texnikalarla idarə olunduğunu vurğulayaraq deyib ki, hazırda Azərbaycan ən müasir, uzaq vuran raket və artilleriya sistemlərinə malikdir. Bu raketlər düşmənin istənilən yerüstü və hava hədəfini məhv etməyə qadirdir. Onlar da paradda nümayiş etdiriləcək.

"İyunun 26-da raket hücumu əleyhinə qalxan sistemi də nümayiş etdiriləcək". Bunu da hərbi nazirimiz söyləyib. "Çoxları deyir ki, Azərbaycanda belə sistemlər ola bilməz. Ancaq paradda görəcəksiniz ki, onlar nədir. Bu yalnız alınan yeni silahların bir qismidir", - deyə o, bildirib. Müdafiə naziri konkret hansı qalxan sistemindən söhbət getdiyini dəqiqləşdirməyib. Şübhə yox ki, söhbət İsrail istehsallı "Dəmir günbəz" raketdən (havadan) müdafiə sistemlərindən gedir. Hansı sistemlər ki, yüksək dəqiqliyi ilə seçilir.

Hərbi ekspert Üzeyir Cəfərov paradın əhəmiyyətinin hər mənada çox böyük olduğunu deyir: "Sürprizlər olacaq. Nümayiş etdiriləcək silahlar içərisində elələri var ki, indiyə kimi heç vaxt paradlarda göstərilməyib. Son illərdə Azərbaycan Silahlı Qüvvələri ayrı-ayrı ölkələrdən ən müasir, yeni 4-cü nəsil silah-sursat alıb. Amerika istehsalı olan "Bell-412" helikopterləri ilk dəfə nümayiş olunacaq. Bu texnika Azərbaycan Hərbi Hava Qüvvələrinin arsenalına bu yaxınlarda verilib. Parada ilk dəfə cəlb olunacaq texnikalar sırasında dəniz əməliyyatları üçün "K-27" və "Mİ-17" nəqliyyat helikopterləri də var. O cümlədən "Mİ-24", "Mİ-24C", "Mİ-35" döyüş helikopterləri, İsraildən alınan yeni hərbi avadanlıq, Belarusdan alınan texnikanın da paradda nümayişi gözlənilir".

*****

Sabahkı paradın başqa bir mühüm özəlliyi dəvət edilən xarici qonaqların rekord sayda olmasıdır. Məlumatlara görə, onların arasında Azərbaycanın strateji tərəfdaşı və silah tədarükçülərindən olan İsrailin müdafiə naziri Aviqdor Liberman da var. Lakin son anda onun Bakıya səfəri ləğv etdiyi deyilir. Səbəb kimi İranın müdafiə naziri Əmir Hatəminin də Bakıya dəvət edilməsi göstərilir. Bununla belə, İsrail nümayəndə heyəti paradda zabit qrupu ilə təmsil olunacaq.

İstənilən halda, sabahkı hərbi törənin önəmi dəyişməyəcək. Ona görə ki, qonaqlar, xarici ölkələrdən olan hərbi attaşelər paraddan aldıqları təəssüratları öz dövlətlərinin rəhbərliyinə çatdıracaq. O sırada şəksiz ki, işğalçı Ermənistan da öz məxsusi "payı"nı götürəcək.

Müdafiə nazirinin də xüsusi vurğuladığı kimi, Azərbaycan son illər hərbi xərclərini xeyli artırmaq hesabına (hərbi xərclərimiz Ermənistanın illik büdcəsindən böyükdür və büdcəyə edilən son düzəlişlərə görə, daha 200 milyon manat artırılıb), yeni və olduqca müasir döyüş sistemləri, dağıdıcı silahlar alıb, özündə bir sıra silahların istehsalını təşkil edib (onlar da ilk dəfə nümayiş olunacaq), habelə hərbi zavodlar və modern hərbi hissələr açıb, əlelxüsus, düşmənin "qorxulu röyası" olan pilotsuz usan aparatlarla bağlı ciddi uğurlara imza atıb. Hava məkanında üstünlüyümüz daha da güclənib.

Eyni zamanda qardaş Türkiyə ilə müntəzəm ortaq təlimlər keçirməklə ordumuz döyüş qabiliyyətini dəfələrlə artırıb. Bütün bu göstəricilərin nəticəsidir ki, Azərbaycan Silahlı Qüvvələri dünyanın 50 ən güclü orduları sırasında yer alır (Ermənistan ümumiyyətlə, siyahıya düşməyib, Gürcüstan - 64-cü yerdədir).

*****

Hərbiyyədəki üstünlüklərimizi düşmən bilməmiş deyil. 2016-cı ilin aprelində aldığı "Lələtəpə qulaqburması" ona görk olmalıdır. İşğalçı onu da bilməmiş deyil ki, aprel hərbi zəfəri sadəcə, bir "jurnal" idi və əgər o, tezliklə konstruktiv danışıqlara başlamasa, Azərbaycanın səbri tükənəcək. Hər halda, Bakı böyük paralar hesabına aldığı, özünün istehsal elədiyi müasir silahları yalnız vitrinə qoyub paslandırmaq və ya vaxtaşırı hərbi paradda nümayiş etdirmək fikrində deyil. Sabahkı hərbi paradla Azərbaycanın dünyaya verdiyi ikinci mühüm mesaj budur.

❑ **"Yeni Müsavat"ın analitik xidməti**



# Bakıda böyük Qarabağ mitinqinə ehtiyac varmı - iki fərqli rəy

**Xəbər verildiyi kimi, Qarabağ Azadlıq Təşkilatı Qarabağ mitinqi keçirməyi planlaşdırır. Yer üçün artıq Bakı Şəhər İcra Hakimiyyətinə müraciət ünvanlanıb. Mitinqin iyulun 21-də "İnşaatçılar" metrostansiyası yaxınlığında yerləşən "Məhsul" stadionunda 10 min nəfərin iştirakı ilə keçirilməsi nəzərdə tutulub. BŞİH alternativ yer göstərərsə, QAT bununla razılaşacaq.**

Məlumat üçün bildirək ki, QAT bu il mayın 12-də də belə bir mitinq keçirmək istəmiş, lakin yer üçün müraciətə BŞİH ümumiyyətlə, cavab verməmişdi. İndi isə belə bir halın yaşanıb-yaşanmayacağı məlum deyil.

Mitinqə icazə veriləcəyi təqdirdə müxalif siyasi partiyaların QAT-a dəstək verib-verməyəcəyi ilə maraqlandıq.

ADP sədri Sərdar Cəlaloğlu hansı zərurətdən mitinqin təyin olunması barədə məlumatsız olduğunu bildirdi: "Mitinqin keçiriləcəyi təqdirdə Bakıda olsam, çalışacam ki, iştirak edim. Açığı, indiki şəraitdə nəyə görə, hansı zərurətdən bu mitinqin təyin olunması mənə qaranlıqdır. Ola bilsin ki, gündəmi dəyişmək üçün belə bir addım atılsın. Qarabağ cəbhəsində hələ ki, ciddi bir yeniliklər yoxdur. Status-kvo olduğu kimi qalır. O zaman sual olunur ki, bu mitinq nəyə görədir? Qanunda mitinqlərə icazə söhbəti yoxdur, sadəcə, razılaşma var. Mitinqin yeri, vaxtı barədə tərəflər razılaşır".

AĞ Partiya başqanı Tural Abbaslı QAT-ı dəstəkləyəcəklərini bəyan etdi: "QAT-ın bundan öncəki Qarabağ mitinqinə öz dəstəyimizi elan etmişdik. Təbii ki, əgər QAT iyul ayında yenə də mitinq keçirməyə təşəbbüs göstərəcəksə, onu tam və sona qədər dəstəkləyəcəyik. Çünki AĞ partiya olaraq bizim üçün ümummilli məsələlərdə dövlətçilik maraqlarından başqa heç nə önəmli deyil. Düşünürəm ki, bu gün Azərbaycanın ən ümdə ümummilli məsələsi Qarabağ məsələsidir. Odur ki, biz də bu məsələdə əlimizdən gələn hər bir işi canla-başla icra edərik və bunu özümüzə ancaq şərəf bilərik. Hesab edirəm ki, indiki məqamda Qarabağ mitinqinin keçirilməsi çox önəmlidir və vacibdir. Çünki Ermənistanda hakimiyyət dəyişikliklərindən sonra hələ də davam edən siyasi qarışıqlıq və müəyyənsizlik şəraitində Bakıda keçiriləcək izdihamlı Qarabağ mitinqi Ermənistandakı siyasi-ictimai əhval ruhiyyəyə sarsıdıcı zərbə vurar. Heç kim unutmamalıdır ki, birinci Qarabağ müharibəsində Azərbaycan ordusunun uğursuzluqlarının başında duran əsas amillərdən biri də ordudakı və xalq arasındakı pessimist və ümidsiz əhval-ruhiyyə idi. O fikirdəyəm ki, Azərbaycan iqtidarı bu mitinqə icazə verməlidir. Nəinki icazə verməli, hətta, bu mitinqin möhtəşəm və izdihamlı alınması üçün əlindən gələn hər cür maddi, texniki, siyasi dəstəyi də verməlidir. Ümid edək ki, bu dəfə hakimiyyətin qərarı müsbət olar. Keçən mitinqlərə icazə verilməmə səbəbini yalnız bir amildə görürəm. Belə ki, Azərbaycan iqtidarı Bakıda ola biləcək istənilən kütləvi aksiyalardan ehtiyat edir. Odur ki, hətta Qarabağ kimi milli bir məsələdə də iqtidar maraqlarından kənara çıxa bilmir. Hökumət unutmamalıdır ki, hakimiyyətlər gəldi gedərdi, əbədi olan Azərbaycan və Azərbaycan dövlətçiliyidir. Sonda belə bir təşəbbüsə görə şəxsim adından QAT-a və onun rəhbəri Akif bəyə təşəkkür edir və bu şərəfli işdə onlara uğurlar arzulayıram".









**Sərdar Cəlaloğlu:** "Çalışacam ki, iştirak edim"
**Tural Abbaslı:** "Qarabağ mitinqinin keçirilməsi çox vacibdir"
**Əli Əliyev:** "İstərdim ki, QAT mitinqinə icazə verilsin"
**Xəzər Teyyublu:** "QAT mitinq edirsə..."

VİP sədri Əli Əliyev Qarabağ mitinqinə icazə verilməsini arzulayır: "Ölkədə hansısa qurumlar Qarabağ məsələsi ilə bağlı radikal mövqe nümayiş etdirməlidir. QAT bu baxımdan qənaətbəxş fəaliyyət göstərir. Ağıllı və milli hakimiyyətlər belə qurumları özləri stimullaşdırır. Bizdə isə buna maneəçilik törədilir. Çünki Qarabağ problemi bizdə siyasi manipulyasiya vasitəsinə çevrilib. İstərdim ki, QAT mitinqinə icazə verilsin. İyun hərbi paradından sonra, xalqın da güc nümayişinə zərurət var. Ola bilər ki, mitinqdə iştirak edim. Fikrimcə, neytrallıq gözlənilsə, iştirak lazımdır".

KXCP sədrinin müavini Xəzər Teyyublu müraciət olarsa, bu müraciətin partiyada müzakirə ediləcəyini qeyd etdi: "QAT mitinq edirsə, bugünkü siyasi vəziyyətdə gərək mitinqi hazırlayan vahid təşkilat komitəsi yaratsın və müxalif siyasi partiyalardan hər birindən nümayəndə olsun ki, hamı bu mitinqdə iştirak etsin. Qarabağ ətrafında birlik başlanğıcı oldu. Bu sadəcə, mənim təklifimdir. Onda millət dəstəkləyəcək. Bizə bu haqda müraciət olunsa, partiyanın rəhbərliyində müzakirədən sonra nəsə demək olar".

❑ **Cavanşir ABBASLI, "Yenì Müsavat"**

# Kremli NATO ilə şantaj etmək Paşinyanın sonunu gətirə bilər

## Qabil Hüseynli: "Rusiya hansısa mərhələdə onu aradan götürə bilər"

**Ermənistanın yeni baş naziri Nikol Paşinyanın iyulun 11-12-də Brüsseldə NATO sammitində iştirak etmək niyyətində olması haqda xəbər yayılıb. Bu barədə Ermənistanın "Jamanak" qəzeti yazıb. "Ermənistan baş nazirinin NATO sammitində iştirakı çox vacibdir. Ermənistan KTMT üzvü olsa da, rəsmi İrəvan NATO-nu tərəfdaş təşkilat və ölkənin təhlükəsizliyinin təmin olunmasında etibarlı müttəfiq kimi görür", - deyə Ermənistan hökumətindəki mənbələrdən biri bildirib.**



Paşinyan hökumətində NATO artıq Ermənistanın "təhlükəsizliyinin təmin olunmasında etibarlı müttəfiq və tərəfdaş təşkilat" kimi qəbul olunur. Halbuki belə bir təhlükəsizlik qarantını Ermənistana illərdir məhz Rusiya təmin edir. İndi bu reallığın fonunda iddia eləmək ki, NATO Ermənistanın təhlükəsizliyinin təmin olunmasında mühüm tərəfdaş və etibarlı müttəfiqdir, bu, artıq Rusiyaya arxa çevirmək deməkdir.

Paşinyanın Moskvadan get-gedə uzaqlaşmaq xətti götürdüyü hər keçən gün görünməkdədir. Bir sıra məqamlarda isə Kremli Qərbə meyillənmək, NATO ilə yaxınlaşmaqla şantaj etdiyi açıq sezilir.

Bu barədə "Yeni Müsavat"a şərhində politoloq Qabil Hüseynli bildirdi ki, Nikol Paşinyanın qərbyönümlü siyasətçi olması, hakimiyyətə gəlməsi üçün Qərb fondlarından yardım almasını, hakimiyyətə gələndən sonra qərbmeyilli siyasət yürüdəcəyi vədini verdiyini təsdiq edən faktlar bir-birinin ardınca çoxalır: "Məsələn, o, hakimiyyətə gələrkən Soros Fondundan ciddi surətdə maliyyələşdirildiyi haqda məlumatlar erməni mətbuatında geniş şərh edilirdi. Üstəlik də Paşinyan çəkinib eləmədən Qarabağ klanının axırına çıxacağını bəyan edərək Rusiyaya qarşı olan siyasətçiləri özünün komandasına toplayıb. Paşinyanın başqa yolu da yoxdur. Çünki o, Qərb meylli siyasətdən daha çox yararlanacağı və Ermənistana ciddi investisiyaları cəlb edəcəyi qənaətindədir. Bunu ona Qərb ölkələrində yerləşən, xüsusilə ABŞ-dakı Erməni Milli Konqresi təlqin etməkdədir. Bu fonda erməni diasporunun aparıcı qanadlarından Paşinyana şirnikləndirici vədlər edilir və hətta onun Qərbə üz tutacağı halda ciddi maliyyə qaynaqları ilə təmin olunacağını söz verirlər. Üstəlik, onu hakimiyyətə gətirən elektoral baza da qərbyönümlü siyasətin tərəfdarıdır. Onlar ölkədə demokratik dəyərlərin bərqərar edilməsi və Qərblə möhkəm əlaqələrin qurulmasını istəyirlər.

Belə görünür ki, ABŞ başda olmaqla Qərb ölkələri Paşinyan hakimiyyətini ciddi surətdə müdafiə etmək, Ermənistanı Rusiyadan mümkün qədər qoparmaq niyyətindədirlər. Paşinyanın NATO-nun Bürsseldəki zirvə toplantısına dəvət edilməsi də bu niyyətdən xəbər verir. NATO rəhbərliyi hansı addımı atdıqlarının fərqindədirlər. Paşinyanın Rusiya ilə münasibətlərinin isti olmadığını və onun qərbmeyilli olduğunu NATO və digər Qərb təsisatları fürsət hesab edirlər. Paşinyan da bu vəziyyətdən yararlanmağa çalışır".

Paşinyanın NATO-ya üz tutmasına Rusiyanın necə yanaşacağına gəlincə, politoloq qeyd etdi ki, Moskvanın Paşinyanın şıltqalığına, manevrlərinə dözüm limiti bir gün bitəcək: "Yeni baş nazirin davranışlarının Kremldə artıq narahatlıq və bundan doğan qəzəb yaradacağı gözlənilir. Rusiya Cənubi Qafqazda mövcudluğunun saxlanmasında Ermənistanın əhəmiyyətini bilir. Ona görə də Paşinyan kimisinin gəlib Ermənistanı Rusiyanın əlindən çıxarmasına dözməz. Rusiya Ermənistan kimi hərbi-siyasi plastdarmından çəkiləsi deyil. Paşinyanın Rusiyanı NATO ilə şantaj etməsi və ya Ermənistanın NATO-ya yaxınlaşması Moskvanı hərəkətə gətirə bilər. Nəticədə Ermənistanda qəfildən hakimiyyət çevrilişi baş verməsi istisna deyil. Hətta o da mümkündür ki, Paşinyan hansısa mərhələdə aradan götürülsün".

Politoloqa görə, N.Paşinyanın Moskvanı narazı salan hərəkətləri Qarabağ məsələsində proseslərin yeni məcraya yön almasına gətirə bilər: "Dağlıq Qarabağ probleminin açarı əlində olan Rusiya bu məsələ ilə bağlı beynəlxalq hüquq normalarına uyğun, haqq və ədaləti özündə əhatə edən mövqe sərgiləyə bilər. Eyni zamanda Azərbaycanın hərbi əməliyyatlara başlayacağı halda bir mərhələyə qədər tamamilə seyrçi qalması variantı da əvvəlki dövrlərdən daha real görünür. Moskva Paşinyana dərs verməyə çalışacaq. Azərbaycana Dağlıq Qarabağın ətrafındakı beş rayonun qaytarılması üçün kart-blanş verilməsi ehtimalı da yüksəkdir. Paşinyanın süqutuna gətirə biləcək bu kimi prosesin də baş verməsi mümkündür. Avqustun sonunda Azərbaycan prezidenti Rusiyaya rəsmi səfərə gedəcək. Vladimir Putinlə danışıqlar aparılacaq. Bu görüşdən ciddi gözləntilər var".

❑ **Etìbar SEYİDAĞA, "Yenì Müsavat"**

YENİ MÜSAVAT
N 135 (7024) 25 iyun 2018



# Bizim fenomenal azarkeşliyimiz

Samir SARI

**Biz dünyanın ən azarkeş xalqıyıq. Bizdən ötəsi yoxdur, özü də bu, təkcə futbolla bağlı məsələ deyil. Futbola qalsa, bəlkə də azarkeşliyə görə ilk onluğa düşmərik. Çünki başqa ölkələrdə camaat öz çempionat oyunlarında stadionu tıxa-basa doldurursa, biz ən intriqalı "Qarabağ"-"Neftçi" oyununda belə getmirik, stadiona ən çoxu 5-6 yüz adam gedir. Hərçənd ondan üç gün öncə "Qarabağ" Madrid "Atletiko"su ilə oynayanda stadionda 50 min civarında adam vardı.**

Belədə ortaya sual çıxır: biz futbolu bu qədər çox seviriksə, niyə hər iki oyuna eyni kütləviliklə getmədik? Cavab təxminən belə olacaq ki, birinci oyundan fərqli olaraq ikinci oyun maraqlı deyildi.

Ancaq ortada bir "Mən "Atletiko"nun, Qrizmanın oyununa canlı-canlı baxmışam" deyə qürrələnmək amili də var. Bu da bizim azarkeşliyimizin, oxumuş adamlar demişkən, spesifik cəhətlərindəndir.

Yuxarıda dediyim kimi, bizim azarkeşliyimiz təkcə futbolu, digər idman oyunlarını əhatə etmir, bu musiqi yarışmasına da aiddir, siyasətə də, müharibəyə də.

Yadımdadır, 1991-ci ilin əvvəlində ABŞ Küveytə girmiş İraqa hücum edəndə milli azarkeşlərimiz iki qrupa bölünmüşdü: bir yarısı Səddama "bolet" edirdi, o biri yarısı ABŞ-a. "Səddam-Səddam" deyənlər daha çox idi. Elə oldu ki, "Səhrada fırtına" əməliyyatında Səddamı vurdular, o da tanklarını Küveytdən çıxarıb dalın-dalın İraqa qayıtdı. Azarkeşlərimiz xeyli pərtləşmişdilər. O vaxt yolum Mingəçevirə düşmüşdü. "Kür" mehmanxanasının həndəvərində iki 17-18 yaşlı qızın hiddətli şəkildə "onlar Səddama heç nə edə bilməyəcəklər, Səddam qalib gələcək" deyə son yeniliyi müzakirə etdiklərini öz qulağımla eşitmişəm. Biri lap kövrəlmişdi. Az qala deyəcəkdim ki, ay qızlar, gedin dərsinizi oxuyun, universitetə hazırlaşın, Səddamdan sizə nə, amma demədim, cırmaq atardılar.

Sonralar da biz eyzən belə haqq-hesablarda tərəf tuturduq, indi də eləyik. ABŞ-da Trampla xanım Klinton prezidentlik yarışına atılır, biz özümüzü elə aparırıq ki, sanki onlar Azərbaycanın prezidenti olacaqlar. Trampsevənlər və Klintonsevənlər iki tirəyə ayrılaraq mübarizə aparırdıq. Bizim üçün bri "dayday", o biri "xala"ydı. Axırda "dayday" qalib gəldi. Amma ondan "dayday"lıq uman, onun qələbəsinə görə yekə qonaqlıq verənlərin tifağı dağılanda "dayday"dan səs-səmir çıxmadı.

"Real" və "Barselona", "Qalatasaray" və "Fənərbağça" tirələrinə bölünərək il uzunu çəkişib-dartışmada olmağımızdan yazmıram, bu, idman azarkeşliyidir, amma biz Ermənistanda gedən siyasi proseslərdə belə azarkeşlik etməyə obyekt-subyekt tapırıq. Məsələn, axırıncı dəfə ölkəmizdə bir xeyli adam deyirdi, hakimiyyətdə Sarkisyan qalsa, yaxşıdır, bir xeyli adam da Paşinyanın hakimiyyətə gəlməsinin tərəfdarıydı.

Hamımız da bilirdik ki, onların ikisi də ermənidir, politoloqumuzun sözü olmasın, ikisi də ermənipərəstdir (yeri gəlmişkən, onun bu sözünü qəribçiliyə saldılar, amma çox dəqiq ifadəydi), ikisi də bizim düşmənimizdir və hansının qalib gəlməsinin bizə heç bir faydası yoxdur, yenə də özümüzü tərəfkeşlik etməkdən saxlaya bilmədik. Paşinyan qalib gəldi və çalsaqqal cənab Qarabağı bizə qaytarmadı, nə vaxt baxırsan, Qarabağda, səngərdədir, durbinlə bizə baxır. Biz isə ona çox inanmışdıq...

Qardaş Türkiyədəki siyasi proseslərə münasibətdə də eyni durumdayıq. Seçki prosesi Türkiyədə necə müzakirə olunursa, bizdə də o cür müzakirə olunur. Bu dəfə heç iki qrupa da bölünməmişik, tam üç qrupa bölünmüşük. Bəlkə də, dörd. Sadəcə, dördüncü qrup səsini çıxarmır, mıqq-pıkk eləmir. Amma Ərdoğanın tərəfdarları ilə İncənin tərəfdarları sosial şəbəkədə amansız mübarizə aparır, hətta sorğu-filan keçirir, kimin qalib gələcəyini əminliklə bildirirdilər.

Bu xasiyyətlə biz çoxdan öz ölkəmizdə azad seçki, baxımlı futbol yarışları təşkil etməliydik. Ancaq bacarmırıq. Bizimki başqa ölkələrdəki yarışları izləmək və vaxtımızı mənalı keçirmək üçün bir-birimizlə öcəşməkdir. Allah bilir, bəlkə də biz Türkiyə vətəndaşı olsaq, o böyük şəhərlərdə təşkil olunan milyonluq mitinqlərin birinə də getməzdik, gedib televizor qarşısında oturub Bolqarıstan çempionatının oyunlarını izləyərdik.

Bizim azarkeşliyimiz bu qədərdir, bundan artıq deyil. Hər nədirsə, fenomenal azarkeşlikdir. Hətta buna, sadəcə, "azar" da demək olar, "keş"siz.

**Ramazan ayı bitər-bitməz ölkəmizdə yenidən toy mövsümü başladı. Orucluq ayında toysuzluqdan şikayətlənən sənətçilərimiz artıq gün ərzində bir neçə toy sifarişi aldığını bildirirlər. Və təbii ki, keçirilən toylarln əksəriyyəti bahalı, israfçı məclislərdir ki, bundan da daha çox əziyyət çəkən elə toy sahiblərinin özləridir.**



# Bahalı toylarımız - qınayırıq, amma dəyişmirik...

## Əhməd Qəşəmoğlu: "İsrafçı toylar cəmiyyətdə rüşvətə, insanların bir-birini aldatmasına təkan verən mexanizmdir"



Artıq toylar deyil, xınayaxdı mərasimləri də dəbə düşüb ki, bu da ailələrə ciddi ziyan vurur. Əvvəllər də xınayaxdı məclisləri keçirilərdi. Lakin dəbdəbəsiz, sadə şəkildə. Bunun üçün ciddi xərc də tələb olunmurdu. Çünki əsasən xına və şirniyyatdan istifadə olunurdu, ən əsası isə məclis evlərdə keçirilərdi. Bu gün isə xınayaxdı məclisləri az qala toy mərasimlərini də geridə qoymağa başlayıb. Bahalı restoranlarda, hətta hotellərdə belə xınayaxdı məclisləri təşkil edilir. Bunun üçün xüsusi studiyalar da fəaliyyət göstərir. Araşdırmalar onu göstərir ki, bu studiyalar bəzən bir gündə 3-4 xınayaxdı məclisini keçirir. Xınayaxdı studiyalarını, mərkəzlərini açanlar isə əksər hallarda tanınmış müğənnilər, rəqqasələr, aktrisalar, hətta aparıcılardır.

Bir neçə il öncə hökumət yas mərasimlərində ehsan süfrəsinə müdaxilə etdi və ölkənin bir çox şəhər və rayonlarında israfçılıq zamanla aradan qalxmağa başladı. O ərəfədə insanlar şadlıq evlərindəki menyuya da "əl gəzdiriləcəyini" düşünürdü. Lakin görünən budur ki, israfçılıq, dəbdəbə xəstəliyi nəinki aradan qalxır, əksinə, getdikcə daha çox əndazəni aşır.

Ölkəmizə gələn turistlər də vurğulayır ki, Azərbaycanda keçirilən bahalı toylara nadir hallarda hansısa ölkədə rast gəlmək mümkündür. Bir çoxlarına məlumdur ki, qonşu Türkiyə və İranda toylar çox sadə şəkildə keçirilir. Hətta həmin ölkələrdə Azərbaycanda olduğu kimi ayrıca şadlıq sarayları yoxdur. Toy məclisləri sadə şəkildə restoranlarda qeyd olunur. Ölkəmizdə isə təmtəraqlı şadlıq saraylarının sayı-hesabı yoxdur.

Maraqlıdır, bəz azərbaycanlıların bahalı toy "xəstəliyinin" səbəb nədir - mentalitet, ya adət-ənənə? Bunu çoxlarımız qınayırıq, amma dəyişmək də istəmirik.

Ekspertlər qeyd edir ki, bu "xəstəlik" heç də adət-ənənədən gələn məsələ deyil. Çünki keçmişdə Azərbaycanda toy məclisi təşkil etmək yeni evlənənlərə kömək məqsədi daşıyırdı. Xüsusən də rayon və kəndlərdə qohum-əqrəbalar toy sahibinin evinə toplaşar, yeni evlənənlər üçün nəyin çatışıb-çatışmadığını müəyyənləşdirər və ümumilikdə bu məsələni həll etməyə çalışardılar. Lakin təxminən 80-ci illərdən, xüsusi ilə ölkəmiz müstəqillik qazandıqdan sonra toylarımızın mahiyyəti tamamilə dəyişməyə, dəbdəbəli keçirilməyə başladı.

Bir çoxları düşünür ki, bu problemi yalnız inzibati yolla aradan qaldırmaq mümkündür. Məsələn, bu ilin əvvəlində Özbəkistan prezidenti bəyanat yayaraq bildirdi ki, artıq məmurlar toya getməyəcək. Ən əsası isə toy sahibləri toya maksimum 120 nəfər çağıra bilər. Qanuna əməl etməyən isə xüsusi qaydada cəzalandırılacaq. Eləcə də Tacikistanda da toylarla bağlı ciddi məhdudiyyətlər qoyulub. Qanuna görə, toyda israfçılıq olmaz və eyni zamanda toya yalnız 150 nəfər gələ bilər. Beləliklə normadan artıq toya qonaq çağıran, habelə toyda normadan artıq yemək verən toy sahibləri cərimələnir, yeməklər müsadirə olunur.

Azərbaycanda da inzibati yolla bu problemi həll etmək mümkündürmü?

Mövzu ilə bağlı sosioloq Əhməd Qəşəmoğlu "Yeni Müsavat"a danışıb:

"Dəfələrlə bu mövzudan danışmışıq. Qeyd edim ki, toylarımızın bahalı, israfçı olması milli mentalitetdən irəli gələn məsələ deyil. Bu, mentalitetimizin zəif tərəfindən istifadə etməkdən irəli gəlir. Və yaxud adət-ənənənin də bu məsələyə aidiyyəti yoxdur. Xatırlayıram ki, keçmişdə toylar tamamilə başqa cür keçirilirdi.

Sadəcə olaraq, son dövrlər tamahkar insanlar əhalinin zəif tərəfindən istifadə edib özlərinin biznes strukturlarını qurur və bundan xeyli miqdarda gəlir əldə edirlər. Bu məsələnin birmənalı olaraq qarşısını ona görə ala bilmirik ki, qeyd etdiyim kimi, restoranların, təmtəraqlı şadlıq evlərinin arxasında xüsusi səlahiyyətli insanlar durur və onlar imkan vermir ki, əhali bu cür sosial axmaq beladan qurtulsun. Dəfələrlə qeyd olunub ki, toyların bu cür bahalı olması ölkədə bir çox iqtisadi-sosial problemlər yaradır. Ölkə əhalisinin əksəriyyətinin maaşı aşağıdır. 300-400 manat gəliri olan insanı ayda 3-4 dəfə toya çağırılıbsa, deməli o adam toya getmək üçün cəmiyyətdə neqativ işlərlə məşğul olmalıdır ki, pul toparlaya bilsin, əks halda toya gedə bilməyəcək. Beləliklə bahalı, israfçı toylar cəmiyyətdə rüşvətə, insanların bir-birini aldatmasına təkan verən mexanizmdir.

Toyların bu cür olması şou-biznes məsələlərini çılpaq şəkildə ortaya qoyur və televiziya ekranlarını öz təsiri altına alır.

Keçmişdə toylarda Xan Şuşinski və bu kimi sənətkarlar oturardu. Beləliklə insanlar muğamın, milli musiqinin şirrləri ilə tanış olur, öz zövqlərini genişləndirir, formalaşdırırdılar. İndi isə toylarda insanların zövqünü korlamaqla məşğuldurlar. Toyun əvvəlində bəylə-gəlin ortaya düşür, zövqsüz musiqilərin sədaları altında oynayır və sairə.

Uzun illərin təcrübəsi onu göstərdi ki, maarifçilik yolu ilə bu problemi həll etmək mümkün deyil. Düşünürəm ki, yalnız inzibati yolla bahalı, israfçı toylara son qoymaq olar. Elə bir mexanizm ortaya qoymaq lazımdır ki, təmtəraqlı şadlıq sarayları tikən insanlar da bu məsələdən hansısa şəkildə yararlana bilsin. Yəni, birdən-birə hər şeyi dayandırmaq olmaz və olmayacaq da. Həmçinin toy müğənniləri ilə bağlı məsələlərdə kompleksli iş getməlidir".

❑ Xalidə GƏRAY,
Musavat.com



# Qarabağ "düyünü": Rusiya da onu açmasa, kim açacaq?

## Konfliktin həllində diplomatik həmlə gecikdikcə havada barıt qoxusu artır; **rusiyalı hərbi ekspert:** "Qarabağ məsələsində yalnız müharibə yolu qalıb..."

**Ermənistanda hakimiyyət dəyişikliyindən sonra hələ ki, münaqişə tərəfləri arasında hər hansı ciddi təmas reallaşmayıb. İlkin mərhələdə Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin görüşünü təşkil eləmək də hələlik müşkülə çevrilib - hərçənd, rəsmi Bakı danışıqları konstruktiv məcrada davam etdirməyə hazır olduğunu bəyan edib. Doğrudur, ötən həftəsonu xəbər yayıldı ki, artıq iki ölkənin xarici işlər nazirlərinin görüşü haqda razılığa gəlinib. Ancaq bu təmasın harada, nə vaxt baş tutacağı haqda heç nə deyilmir.**




İşğalçı ölkənin yeni rəhbərliyinin başı, belə görünür, daxili problemlərə və bir də Qarabağ mövzusunda populist bəyanatlar və gerçəkləşməsi mümkün olmayan vədlər verməyə, həmçinin, işğal altındakı ərazilərimizə təxribatçı səfərlər eləməyə qarışıb. Bəs bundan sonra nə olacaq, gözləntilər nədir?

*****

Bir çox ekspertlər suala birmənalı cavab verməyə çətinlik çəkir və bunu da Ermənistan daxilində hökm sürən siyasi qeyri-müəyyənliklə, yeni hakimiyyətin Qarabağ məsələsində səriştəsizliyi ilə izah edirlər.

Elə bu səbəbdəndir ki, Ermənistan baş naziri Nikol Paşinyanın xarici siyasət üzrə müşaviri Arsen Xaratyan Qarabağ danışıqlarında ölkənin keçmiş prezidenti Serj Sarkisyanın iştirakını istisna etmədiyini bildirib. Halbuki Sərksiyanı hakimiyyətdən imtinaya elə Paşinyan vadar edib.

Xaratyan deyib: "Təəssüf ki, Ermənistanda Qarabağ danışıqlar prosesi üzrə dolğun məlumata malik çox adam yoxdur. Ola bilsin, gün gələcək ki, S.Sarkisyan bu məsələ üzrə xüsusi elçi olacaq. Dövlət maraqlarının olduğu məsələlərdə hər hansı şəxsin iştirakı istisna edilmir".

Onun sözlərinə görə, keçmiş diplomat anlayışı yoxdur. "Bir aydan, bir ildən və beş ildən sonra nə olacağını heç kim bilmir. Vəziyyət elə dəyişə bilər ki, bu insanların biliyindən, təcrübəsindən istifadə zərurəti yaranar. Bu qapını heç vaxt bağlamaq olmaz", - deyə baş nazirin müşaviri deyib.

*****

Bu fonda ötən həftə Qarabağla bağlı qismən yadda qalan yeganə hadisə BMT Baş katibi Antonio Quterreş və Rusiyanın xarici işlər naziri Sergey Lavrovun Moskvada keçirdiyi birgə mətbuat konfransı oldu. Xəbər verildiyi kimi, tədbirdə Dağlıq Qarabağ münaqişəsinə dair BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinin artıq 25 ildir icra olunmadığı haqda da sual verilib. A.Quterreş BMT TŞ-nin qətnamələrinin yerinə yetirilməsinin zəruri olduğunu bildirib, Lavrov isə deyib ki, sözügedən qətnamələr hərbi əməliyyatlar zamanı qəbul edilib.

"Onlar bir çox hallarda, o cümlədən bizim ölkəmiz tərəfindən atılan addımlarla yanaşı, qan tökülməsinin qarşısının alınması, vəziyyətin siyasi dialoq müstəvisinə keçirilməsinə imkan yaratdı", - deyə Lavrov bildirib və faktiki, qətnamələrin işləmədiyinə işarə edib.

Rusiya baş diplomatının bu açıqlaması analitiklərin diqqətindən yayınmayıb.

"Sergey Lavrovun bu şərhi Moskvanın Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində irəliləyişə nail olmaq üçün öz paketinin olduğunu göstərir. Əlbəttə ki, bu paket Moskvanın maraqları daxilindədir. Moskvanın nə təklif edəcəyi məlum olmasa da, bu təklifin həm Azərbaycana, həm də Ermənistana ediləcəyi aydın məsələdir".

"Yeni Müsavat"ın məlumatına görə, bu sözləri axar.az-a Rusiyanın Xarici İşlər naziri Lavrovun BMT TŞ-nin Qarabağa dair qətnamələrinin yerinə yetirilməməsi səbəbi haqda çıxışını şərh edən gürcü ekspert Gela Vasadze deyib. Onun sözlərinə görə, hazırda Ermənistanda çətinləşən vəziyyəti və bütövlükdə regiondakı ciddi siyasi sarsıntıları nəzərə aldıqda Moskvanın öz fəaliyyətini artıracağını gözləmək olar. "Düşünürəm ki, qarşıdakı 2 ay - iyul, avqust, ola bilsin, sentyabr bu istiqamətdə həllidici ola bilər", - gürcü ekspert bildirib.

Vasadze Moskvanın Bakı və İrəvana "Lavrov planını" təklif edəcəyini düşünür: "Biz hamımız bilirik ki, münaqişə bölgəsində rus sülhməramlıların yerləşdirilməsini nəzərdə tutan "Lavrov planı" adlı anlayış mövcuddur. Planın baş tutması üçün Moskvanın Bakı və İrəvana hansı arqumentləri irəli sürəcəyini və ya bunun hansı hadisələrlə izləniləcəyini, burada rus sülhməramlılarının yerləşdirilib-yerləşdirilməyəcəyini zaman göstərəcək. Biz hazırda bir tək şeyi əminliklə deyə bilərik. Aydındır ki, Moskvanın Cənubi Qafqazda möhkəmlənmək üçün planı var və Dağlıq Qarabağ bu möhkəmlənmə prosesi üçün sadəcə vasitədir".

Gürcü politoloq Lavrovun "BMT qətnamələrinin danışıqlar müstəvisinə keçid üçün zəmin yaratmağa xidmət etməsi" fikrinə də münasibət bildirib. BMT-ni qəribə qurum adlandıran ekspert qətnamələrin icrası üçün BMT-nin heç vaxt təzyiq göstərmədiyini bildirib: "BMT qəribə qurumdur. Əgər yuxarıdan sanksiyalar tətbiq olunmayıbsa, qurum heç vaxt heç kimə təzyiq göstərmir. O cümlədən münaqişənin həlli üçün qəlib axtarıldığı bir şəraitdə heç vaxt təzyiq göstərilməz. Qəbul olunan qətnamələr sadəcə, böyük aktyorların razılıqlarının qeydə alınmasının nəticəsidir".

*****

Məsələ də bundadır ki, Qarabağ "düyünü"nü böyük oyunçulardan kim açacaq - Rusiya, yoxsa? Aydındır ki, Moskva öz xoşuna sülh prosesində kardinal dönüşə həvəs göstərməyəcək. Buna o ya vadar edilməlidir, ya da regional və ya qlobal situasiya elə dəyişməli, elə yeni geosiyasi reallıqlar ortaya çıxmalıdır ki, Rusiya buna getmək zorunda qalsın. Ona kimi isə təbii ki, Azərbaycan Ermənistan üzərində əzici hərbi üstünlüyünü təmin eləməli və saxlamalıdır.

"Azərbaycan hava məkanında mütləq üstünlüyə malikdir". "Yeni Müsavat" xəbər verir ki, bu barədə tanınmış rusiyalı hərbi analitik Aleksandr Xramçixin 1in.am erməni nəşrinə açıqlamasında Azərbaycan və Ermənistanın hərbi göstəricilərindən danışarkən deyib.

Analitik Ermənistandakı hakimiyyət dəyişikliyinin Dağlıq Qarabağ nizamlanmasının perspektivinə mümkün təsirindən də danışıb. Həm də pessimist ovqatda: "Açığı, mən başa düşmürəm ki, dinc nizamlama nə deməkdir. Dinc nizamlama odur ki, tərəflərdən biri heç bir ön şərt qoymadan kapitulyasiya edir. Mən indi bilmirəm, hansı tərəf müharibəsiz kapitulyasiyaya hazırdır. Bu haqda çox danışmışam. Ancaq əgər tərəflərin mövqeyi 20 ildən artıqdır dəyişmirsə və bir-birini istisna edirsə, bu, o deməkdir ki, yalnız müharibə yolu qalır".

Rusiyalı ekspertin son fikri ilə razılaşmaq da olar, razılaşmamaq da. Ona görə ki, Ermənistanın məsələdə radikal mövqe tutmasının əsas səbəbi elə Rusiyadır, işğalçının Rusiyaya arxalanmasıdır. Başqa sözlə, Moskva istəsə, işğalçı ölkədən dəstəyini çəkər və Ermənistan Azərbaycanla qarşıdurmada tək bacara bilməyəcəyini, qüvvələr nisbətinin onun xeyrinə olmadığını anlayıb qısa zamanda sülhə gələr...



# Serj Sərkisyanın qardaşına qarşı iri korrupsiya ittihamı

**Ermənistanın keçmiş prezidenti Serj Sərkisyanın qardaşının təsisçisi olduğu "CLC Proekt kompani" şirkətinin fəaliyyəti nəticəsində dövlətə 300 milyon dram (600 min dollardan çox) zərər dəyib. Bu barədə Ermənistanın Dövlət Gəlirləri üzrə Komitəsinin mətbuat xidməti bildirib (virtualaz.org).**

2013-2017-ci illərdə şirkətin fəaliyyəti nəticəsində dövlət büdcəsinin gəlirləri 527 min dram (7000 dollardan çox) təşkil edib. Eyni zamanda, şirkətin hesabatlarına görə, dövlət qarşısında vergi borcları 147 milyon dram (306 min dollar) olub. Lakin bu borclar ödənilməyib. Bundan əlavə, şirkət 2016-cı ilin birinci rübü üzrə 140 milyon dram (300 min dollar) vergi ödənişlərindın yayınıb.

Məlum olub ki, "CLC Proekt kompani" şirkətinin direktoru və təsisçisi keçmiş prezident Serj Sərkisyanın qardaşı Levon Sərkisyandır. Səhmlərin 20%-i onun oğlu Narek Sərkisyana məxsusdur. Fond Yerevanda fəaliyyət göstərən Surb Qriqor Lusaroviç kilsəsinin ünvanında qeydiyyatdan keçirilib, lakin faktiki olaraq orada fəaliyyət göstərməyib. Komitədən bildirilib ki, doqquz ünvanda, eyni zamanda şirkətin təsisçilərinin mənzillərində və Pünik fondunun ofisində axtarışlar aparılıb.

Dövlətə dəymiş zərərin həcmi 300 milyon drama bərabərdir. "Biləkərdən müflisləşmə" və "vergidən yayınma" maddələri üzrə cinayət işi başlanıb. İstintaq hərəkətləri davam edir.

YENİ MÜSAVAT
N 135 (7024) 25 iyun 2018

# "Ailədaxili zorakılıq hallarında lazımdırsa, boşanmalara gedilməlidir"

## Şəhla İsmayıl: "Ailədə işsizlik varsa, yoxsulluq göstəriciləri yüksəkdirsə, zorakılıq ehtimalı da çox olur"

**Ailədaxili zorakılıq mövzusu Azərbaycan cəmiyyəti üçün hər zaman aktual olub. O baxımdan problemin daima müzakirə edilməsinə və mətbuatın gündəmində qalmasına ehtiyac var. Demokratiya və Qadın Təşəbbüsləri İctimai Birliyinin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirdiyi "Ailədaxili zorakılığa qarşı ictimai mübarizənin təşkili" layihəsinin bir məqsədi də bu problemi ictimai müzakirəyə çıxararaq həllinə nail olmaqdır. Bu xüsusda "Rasional İnkişaf Uğrunda" Qadınlar Cəmiyyətinin sədri Şəhla İsmayılla müsahibəni təqdim edirik.**



***- Şəhla xanım, ailədaxili zorakılıq məsələsinin Azərbaycan cəmiyyəti üçün aktuallığı müzakirəyə ehtiyacı olmayan bir mövzudur. Problem ölüm hallarına, intiharlara qədər aparıb çıxarsa da, zəruri tədbirlərin görülməsi niyə yetərli deyil?***

- Mövzunun nə dərəcədə aktual olduğunu bilmək üçün çox əsaslı bir qiymətləndirməyə ehtiyac var. Bu isə illər boyu aparılmayıb. 2016-cı ildə bizim təşkilat belə bir araşdırmaya başladı və 2017-ci ildə biz Azərbaycanda zorakılığın miqyası və qadın qətlləri ilə bağlı hesabatımızı yayımladıq. Bunu çox məhdud bir metodologiya ilə, yəni iki əsas məqamın monitorinqi ilə ərsəyə gətirdik. Birincisi, media monitorinqi apardıq, həmin vaxta qədər mediada gedən məlumatları araşdırıb, rəqəmlər ortaya çıxartdıq. İkincisi, Daxili İşlər Nazirliyinin kriminal xronikasının monitorinqini həyata keçirdik və ona əsaslandıq. Bu iki mənbə bizə çox həyəcanlı bir mənzərəni göstərdi. Biz bu hesabatda 2010-2016-cı illəri, yəni cəmi 7 ili monitorinq etdik və təəssüf ki, artan tendensiyanı gördük. Bu hesabat tam mənzərəni əks etdirməsə də, vəziyyətin çox acınacaqlı olduğundan xəbər verir. Bildiyiniz kimi, zorakılıq deyərkən biz 4 növ zorakılığı nəzərdə tuturuq- fiziki, psixoloji, iqtisadi və cinsi zorakılıq. Qeyd etdiyim hesabatda isə əsasən fiziki və cinsi zorakılıq faktları nəzərdə tutulub. Çünki iqtisadi və psixoloji zorakılıq hallarının monitorinqi tamam fərqli metodlar, resurslar tələb edir. Onları da bu siyahıya əlavə etsək, çox ağır bir mənzərənin şahidi ola bilərik. Təəssüf ki, hazırda işlənməkdə olan tədbirlər qətiyyən öz nəticəsini verə bilmir. Çünki məsələyə birtərəfli baxılır.

***- Zorakılıq qurbanları əsasən hansı kateqoriyadır? Bəs törədənlər hansı sosial qrupdan olan insanlardır?***

- Bunu ümumiləşdirmək bir qədər çətindir. Çünki hər bir təbəqədən olan ailələrdə zorakılıq baş verir. Təbii ki, müəyyən risk qrupları da var və orada ailədaxili zorakılıq hallarının baş vermə ehtimalı daha çoxdur. Sosial və iqtisadi baxımdan daha əlverişsiz şəraitdə olan insanlar arasında zorakılıq hallarına daha çox rast gəlinir. Əgər ailədə işsizlik, kasıblıq varsa, yoxsulluq göstəriciləri yüksəkdirsə, bu zaman zorakılıq olması ehtimalı daha çox olur. Həmçinin erkən nikah faktı varsa, bu da zorakılıq üçün zəmin yaradır. Çox erkən yaşda ailə quran insanlar kifayət qədər şüurlu şəkildə münasibət qura bilmədikləri üçün zorakılıqla bağlı risklər mövcud olur. Ancaq birmənalı olaraq zorakılıq hallarının kasıb və ya orta təbəqəli ailələrdə olduğunu demək doğru olmazdı. Təhsilli ailələrdə də, imkanlı ailələrdə də bu kimi hallar baş verir. Lakin bu da faktdır ki, təhsil səviyyəsi, gəlir səviyyəsi daha aşağı olan ailələrdə risk daha böyükdür və zorakılıq halları da daha çox müşahidə olunur.

> **"Qızlarımızı da, oğlanlarımızı da eyni tərzdə tərbiyə eləsək, heç bir fərq qoymadan böyütsək, bu, daha yaxşı nəticə verər"**

***- Şəhla xanım, qeyd etdiyiniz risk qruplarına daxil olan insanlarla necə iş aparılmalıdır ki, bədbəxt hadisələrin sayı azalsın?***

- Burada iki istiqamətdə tədbirlər görülməlidir. Həm önləyici profilaktik tədbirlər görülməlidir, həm də hadisə baş verəndən sonra ona müvafiq olaraq iş görülməlidir. Hər iki istiqamətdə balanslı şəkildə iş aparılmalıdır. Önləyici tədbir olaraq, bu barədə maarifləndirmə işini gücləndirməliyik. Bu sahədə işləyən insanların bilik və bacarıqlarını artırmalıyıq. Vəziyyəti tam qiymətləndirmək üçün isə araşdırmaya ehtiyac var. Yanlış rəqəmləri deyil, doğru vəziyyəti ortaya qoymaq üçün çaba göstərilməlidir. Nə qədər düzgün monitorinq eləsək, bir o qədər doğru şəkildə həlli yollarını da tapa bilərik. Bundan başqa, 2010-cu ildə qəbul olunan "Məişət zorakılığının qarşısının alınması haqqında" Qanun beynəlxalq standartlara ümumiyyətlə cavab vermir. Onun beynəlxalq normalara uyğunlaşdırılması üçün dəyişikliklər edilməlidir. Maarifləndirmə tədbirləri genişləndirilməlidir. Bu, sadəcə, zorakılığı pisləmək formasında deyil, qadın hüquqları ilə bağlı durumu yaxşılaşdırmaq, gender bərabərliyini təbliğ etmək şəklində qurulmalıdır. Qadın və kişinin cəmiyyətdəki sosial rolları ilə bağlı bilgilər verilməlidir, müəyyən stereotiplərin aradan qaldırılması ilə bağlı işlər görülməlidir. Maarifləndirmədən də artıq, təhsildə buna gedilməlidir. Təhsil sistemində bu məsələlər nəzərə alınmalıdır. Biz uşaqlarla, yeniyetmələrlə işə nə qədər erkən başlasaq, bir o qədər şansımız da çox olar. Ailələrlə iş aparılmalıdır. Əgər uşaq ailədə zorakılığı və qadına təzyiqi görürsə, bu onun üçün bir örnək olacaq və gələcəkdə də bunu təkrarlayacaq. Bütün bu işlər paralel aparılmalıdır.

***- Ailədaxili zorakılıq hallarında boşanmaları dəstəkləyirsinizmi?***

- Ailənin işinə müdaxilə kimi qiymətləndirilən bəzi tədbirlər görülə bilər. Lazım olarsa, mühafizə orderi verilməlidir, lazım olarsa boşanmalara gedilməlidir. Cəmiyyətdə boşanmaların böyük bir faciə kimi qarşılanması stereotipini qırmaq lazımdır. Bir ailədə zorakılıq varsa, burada 3 çıxış yolu var. Onlardan biri dözməkdir, hansı ki, qadınlarımız illər boyu buna dözürlər. İkincisi, zorakılıq baş verərsə, boşanmaqdır, üçüncüsü də qətllə nəticələnəcək həddə çatmasını gözləməkdir. Biz boşanmanı cəmiyyətə faciə kimi göstəririksə, o zaman digər variantlara gətirib çıxara bilər. Mən heç zaman ailələrin boşanmasını istəmərəm, ancaq burada tamam fərqli yanaşmaya ehtiyac var. Bəzi hallarda boşanmanı gecikdirmək qətllərə qədər gətirib çıxarır. Bundan başqa, media, vətəndaş cəmiyyəti və hökumətin birgə işləri olmalıdır. Məlumat bazası formalaşdırılmalıdır, Ombudsman aparatı və məhkəmələr yaxşı işləməlidir. Heç bir halda zorakılıq törədən insana bəraət qazandırılmamalıdır.

***- Şəhla xanım, məişət zorakılığına qarşı ictimai qınağın olmamasının səbəbi nədir? Niyə insanlar qonşularında, yaxınlarında bir qadının şiddətə məruz qalmasına susurlar?***

- Bu adətən ailədaxili bir məsələ kimi qiymətləndirilir və heç bir halda insanlar özlərində başqasının ailəsinə müdaxilə etmək haqqı görmürlər. Ancaq ictimai rəydə bu düşüncəni azaltmağa yönəlik işlər görülməlidir. Təəssüf ki, Azərbaycanda hüquq-mühafizə sistemi elə bir vəziyyətdədir ki, insanların kiminsə hüququnu müdafiə ilə bağlı təşəbbüskarlığı onların özlərinə qarşı çevrilir. Bu gün mən qonşuda bir səs eşidib polisə müraciət edirəmsə, polisin yanaşması o qədər qeyri-peşəkar olur ki, mən bəlkə də o ailəyə daha böyük ziyan vurmuş oluram. İnsanların müdaxilə etməkdən çəkinməsinin bir səbəbi də odur ki, polis çox zaman ona müraciət edən insandan da əl çəkmir. Onunla elə davranır ki, insan zəng vurmağına da peşman olur. Bu, təkcə zorakılıq hallarında yox, bir çox məsələlərdə belə olur. Bizim xalqımız əslində ictimai iştirakçılığı sevən, yardım etməyi bacaran xalq olub. Hazırda müşahidə etdiyimiz laqeydlik isə həm də hüquq-mühafizə sisteminin ədalətli olmaması ilə bağlıdır.

***- Ailədaxili zorakılığı tətikləyən amillər arasında milli mentalitetdən gələn stereotiplər də var... Məsələn, kişinin ailədə qeyri-müstəsna hüquqları, qadının mövqeyinin ikinci planda olması ilə bağlı. Bunlarla bağlı dəyərləndirməniz necədir?***

- Bunlar da ailədaxili zorakılığı tətikləyən amillərdən sayılır. Təhsildə bu stereotiplərlə və gender rolları ilə bağlı işləməyə çox ciddi ehtiyac var. Əgər biz qızlarımızı da, oğlanlarımızı da eyni tərzdə tərbiyə ediriksə, aralarında heç bir fərq qoymadan böyüdürüksə, bu, daha yaxşı nəticə verər. Biz tədricən rolların bərabər paylaşdığını görəcəyik. Gender rollarının qeyri-bərabər paylaşımı birbaşa zorakılığa aparan amillərdən biridir.

***- Azərbaycan ailə institutu ilə bağlı çox zaman tərif yağdırılır. Ancaq qeyd etdiyiniz hallar göstərir ki, vəziyyət o qədər də ideal deyil. Ailə institutunda nələr dəyişməlidir ki, zorakılıq hallarına da son qoyulsun?***

- Bizim ailələrdə köklərə bağlılıq həddindən artıq çoxdur. Bu da öz fəsadlarını verir. Birinci məsələ, gənclərin bir-birini çox yaxşı tanımadan evləndirilməsidir. Bəzi ailələrdə nişanlıyıkən belə gənclərin görüşməsinə imkan verilməməsi onların bir-birini yaxşı tanımaması ilə nəticələnir. Evləndikdən sonra elə xasiyyətləri üzə çıxır ki, bu insanlar həyat yolunu bir yerdə gedə bilməyəcəklərini anlayırlar. Reallıq bunu tələb edir ki, gənclər üçün evlənmədən öncə ünsiyyət qurmağa, bir-birinin xasiyyətini tanımağa şərait yaratmaq lazımdır. İkinci bir məsələ isə odur ki, nəsillər arasında kommunikasiya olmalıdır. Bizim ailələrdə intim mövzularda danışmamaq mədəniyyəti mövcuddur. Bəzi mövzularda ana və bacı ilə danışmaq olmaz, ata ilə oğul arasında bu mövzular danışıla bilməz. Ancaq ailədə elə mühit yaratmaq lazımdır ki, gənclər bu məlumatları kənardan öyrənməsinlər. Bizdə ciddi ünsiyyət problemi var. İnsanlar narahatlığını ifadə etməkdən çəkinirlər. Ailədə həyat yoldaşları arasında belə bu problem mövcuddur. İstənilən narahatlığı çözmək üçün ən gözəl vasitə danışıqdır. Problem vaxtında danışılıb çözülmədikdə daha böyük nəticələrə gətirib çıxarır.



***QEYD:*** **müsahibə Demokratiya və Qadın Təşəbbüsləri İctimai Birliyinin Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirdiyi "Ailədaxili zorakılığa qarşı ictimai mübarizənin təşkili" layihəsi çərçivəsində hazırlanıb.**

**❑ Məğrur MƏRD, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 135 (7024) 25 iyun 2018

**Bu gün futbol üzrə dünya çempionatında qrup mərhələsinin son oyunları başlayır. Məlumdur ki, qaydalara görə, qrup mərhələsinin son tur oyunları eyni vaxtda başlayacaq.**



# Mundialda qırğın bu gün başlayır

## Rusiya və Uruqvay qrupda birinci yerin taleyini həll edəcək; İran-Portuqaliya oyunu qrupu alt-üst edə bilər...









**Rusiya-Uruqvay: heç-heçə, yoxsa...**

Bu gün A qrupunda saat 18:00-da başlayacaq oyunların xüsusi intriqası yoxdur. Ev sahibləri olan Rusiya ötən turda Misir millisinə 3:1 qalib gələrək 6 xalla növbəti mərhələyə yüksəliblər. Rusiyanın bugünkü rəqibi Uruqvay da Səudiyyə Ərəbistanını 1:0 hesabı ilə yenərək 6 xalla "pley-off"a ikinci vəsiqəni əldə edib. Rusiya və Uruqvay bu gün qrupda birinci yerin sahibini müəyyən etməlidir. Çünki qrupda ilk yeri tutan B qrupunun ikincisi ilə oynayacaq. 2-ci yerin sahibinin rəqibi isə B qrupunun lider olacaq.

**Rusiya ilk dəfə əsl sınağa çəkilə bilər**

Rusiya dünya çempionatının açılış matçında Səudiyyə millisinin qapısından 5 top, Misirə isə 3 qol vurub. Komanda qapısından cəmi 1 top buraxıb.

Bu gün hər hansı hesablı bərabərlik qeydə alınarsa, Rusiya qrup lideri olacaq. Çünki Uruqvayın aktivində cəmi 2 top var. Cənubi amerikalılar hər iki rəqibinin qapısından cəmi 2 top keçirib. Uruqvay ancaq qalib gələcəyi halda qrup lideri ola bilər. Qeyd edək ki, bu komandalar cəmi bir dəfə Moskvada yoldaşlıq görüşündə qarşılaşıblar. Oyun 1:1 hesabı ilə nəticələnib.

Rusiyanın iki oyunda böyük hesablı qalibiyyəti gözlənilməz olmadı. Misir də onların qarşısını kəsə bilmədi. Həmin oyun Misir millisinin çempionata istənilən səviyyədə hazırlaşmadığını göstərdi. Komandanın əsas qol ümudi Məhəmməd Salah ruslarla qarşılaşmada meydana çıxsa da, gücü yalnız 11 metrlik cərimə zərbəsindən bir qol vurmağa yetdi.

Mətbuatda belə xəbərlər vardı ki, Salah yığmanın zəif hazırlığında Misir Futbol Federasiyasını suçlayıb. O deyib ki, federasiya komandanın mundiala hazırlıq məşqlərini şouya çevirib, varlı ərəblərin, şou ulduzlarını stadiona buraxaraq oyunçuların hazırlığına mane olub. Amma indən sonra bu kimi bəhanələrin nə faydası?

Bu gün həm Misir və onların rəqibləri olan Səudiyyə millisi üçün mindial həyəcanı bitmişdi. İndən sonra vətənlərinə qayıdıb şoularda iştirak edə bilərlər.

Yenə Rusiya oyununa qayıdaq. Rusiya ikinci turda da yaxşı oyun sərgilədi. Rusların heç SSRİ dövründən futboluna (hokkey istisnadır) azarkeşlik etməmişəm. Ədalət naminə deyək ki, hər iki oyunda qonşu ölkə komandası sürətli oyun nümayiş etdirdi. Hiss olunur ki, yığma komandada təkcə "dumanlı rus başı" işləmir. Məlumatlara görə, Rusiya millisinə son ilyarımda Avropadan ən yaxşı fiziki və taktiki hazırlıq üzrə mütəxəssilər dəvət ediblər.

Uruqvayı səviyyə etibarilə Rusiyanın sıradan çıxardığı iki ərəb ölkəsi komandası ilə müqayisə etmək olmaz. FİFA-nın reytinq cədvəlində Uruqvay 14-cü yerdə qərarlaşıb, Rusiya isə 70-ci yerdədir. Rusiya bu mundialda ilk dəfə futbolu daha yaxşı oynamağı bacaran rəqiblə qarşılaşacaq.

İkiqat dünya çempionu Uruqvayın, təəssüf ki, hələ gözlənilən oyunları alınmır. Hər iki oyunda minimal hesabla qələbə uruqvaylıların yaxşı formada olmadığını göstərir. Hücum xəttində ən güclü futbolçuları - Suares və Kavano ilə Uruqvay rəqib qapısına zorla yol tapa bilir, ötürmələrdə səhvlər çoxdu, fiziki hazırlıq da bır sıra komandalarla müqayisədə geri qalır. Yeni FİFA reytinqinə baxmayaraq, Rusiya və Uruqvay qarşılaşması bərabər səviyyəli komandaların sınağıdır. Bir neçə il əvvəl isə Uruqvay adı gələndə Rusiya da daxil, bəzi komandaların canına vəlvələ düşərdi yəqin. Bu, həm də o anlama gəlir ki, müasir futbol yerində saymağı, oyunu keçmiş uğurlarla arxayınlaşmağı qəbul etmir.

Rusiya və Uruqvay bu gün sülhlə ayrıla bilərlər, məşqçilər də yəqin "pley-off" ərəfəsi zədələrdən yayınmaq, əsas oyunçuları qorumaq üçün hücum futboluna meyllənməyə bilərlər. Amma Rusiya maksimim xalı qazanmaq, Uruqvay əvvəlki təhlükəli rəqib imicini saxlamaq üçün meydanda bizim gözləmədiyimiz oyun da nümayiş etdirə bilər.

Qeyd edək ki, bu qrupun birincisi B qrupunda ikinci yeri tutan komanda ilə oynayacaq. Bir az irəli gedərək, deyə bilərik ki, bu, İran da ola bilər, Portuqaliya da, İspaniya da...

**Misir və Səudiyyə Ərəbistanı evə gedir**

Bu qrupda eyni vaxtda keçirilən Misir-Səudiyyə Ərəbistanı görüşü isə yalnız bu komandaların azarkeşləri üçün maraqlı ola bilər. Hər halda, ərəb ölkələri təmsilçiləri üçün bu mundialda son oyun olduğundan qalib gəlmək üçün meydana çıxacaqlar. Misir zəif çıxış etsə də, Səudiyyə Ərəbistanı ilə müqayisədə daha təcrübəli futbol oynayır. Bu komandalar indiyədək 6 dəfə qarşılaşıblar. Onların 4-də Misir, 1 görüşdə isə səudiyyəlilər üstün olub. Təəssüf ki, Misirin əsas forvardı Məhəmməd Salah zədə səbəbindən bu mundialda özünü göstərə bilmədi. Bugünkü oyunda onu heyətdə olub- olmayacağı dəqiq deyil. Prinsipcə, bu az əhəmiyyətlidir.

**İran, Portuqaliyanı evə göndər...**

Bu gün saat 22:00-da B qrupunda da son turun oyunları keçiriləcək. Əgər A qrupunda hər şey aydın olsa da, bu qrupda Mərakeşdən başqa üç komandanın "pley-off"a çıxmaq şansı var. Bu gün aktivində 3 xalı olan İran, 4 xalla lider olan Portuqaliya ilə qarşılaşır. Portuqaliyanı heç-heçə təmin edir. İrana isə mütləq qələbə lazımdır. Çünki bu qrupun autsayderi Mərakeş bu gün İspaniya ilə qarşılaşır. İspaniya da "pley-off"u qaranti altına almaq üçün qalib gəlməlidir.

İran və Portuqaliya indiyədək iki dəfə qarşılaşıblar. Bu görüşlərin biri uzaq 1972-ci ildə Müstəqil Braziliya Kubokunda olub. Portuqallar 3:0 hesabı ilə qalib olub. 2006-cı il mundialında isə onlar bir qrupda yer alıb. Avropa təmsilçiləri bu dəfə də qalib olublar - 2:0.

İran bu mundialda keçirdiyi iki görüşdə əzmkar oyun nümayiş etdirdi. Onların Avropanın nəhəng komandası İspaniya ilə başa-baş oynaması da qeyd edilməlidir. Son Avropa çempionu Portuqaliya qrup mərhələsində 2 il əvvəlkindən daha yaxşı oynayır. KriRo mundialda qolları sıralayır. Komandanın vurduğu 4 qolun müəllifi olan forvard bugünkü oyunun da taleyini həll edə bilər. Amma İran da bu tarixi şansı öz xeyrinə dəyişmək istəyir. Yada salaq ki, 2011-ci ildən İran millisini çalışdıran Karluş Keyruş bundan əvvəl Portuqaliya millisini çalışdırıb. İran bu gün Keyrun strategiyası nəticəsində Portuqaliyanı mübarizədən kənarlaşdıra bilsə, "pley-off"dakı oyunlarınn nəticəsindən asılı olmayaraq, mundialın qəhrəmanları ola bilərlər.

Bu gün mən İranın qələbəsini çox arzulayıram. Mundial başlayanda "bəlkə, İrana azarkeşlik edək" deyə, bir replika yazmışdım. O gün bu gün imiş... İran Portuqaliyanı evə göndərərsə, mundial cazibəsini itirməyəcək...

**İspaniya risk altında**

Mərakeş və İspaniya millilələri ötən əsrin 60-cı illərində iki dəfə qarşılaşıblar. 1962-ci ildə Qitələrarası kubok uğrunda komandalar iki dəfə üz-üzə gəliblər. Hər iki görüşdə İspaniya(2:0, 2:3) qalib gəlib.

Mərakeş "pley-off" şansını itirib, amma Rusiyaya gələn minlərlə azarkeşini məyus etməmək üçün mübarizə aparacaqlar. Yada salaq ki, Mərakeş hər iki oyunda minimal hesabla uduzub və onlar erkən evə gedirlər. Mərakeş həm hücumda, həm də müdafiədə baxımlı oyun göstərdilər. Amma komandanın bir çox qol vəziyyətlərini reallaşdıra bilmədi. İranla oyunun son dəqiqəsində avtoqol olmasaydı, Afrika təmsilçiləri mundialda autsayderlər sırasına düşməyə də bilərdi.

İspaniya xüsusilə İranla oyunda yenə də "tiki-taka" stilində oynamağa meyilləndi. Topa nəzarət üçün qısa ötürmələrdən ibarət bu stil nə qədər tənqid edilsə də, İspaniya bundan imtina etmir. İspaniya Mərakeşlə oyunda qələbə qazanmalıdır. Çünki İran Portuqaliyanı udarsa, Mərakeş onları məğlub edərsə, növbəti mərhələyə yenə Portuqaliya çıxa bilər. Nəzəri olaraq, bütün variantlar mümkündür. Portuqaliya və İspaniya heç- heçə oynadığı üçün vurulan və buraxılan qollar əsas götürüləcək. İranın heç-heçə, İspaniyanın uduzacağı halda isə 4 xalı olan Avropa təmsilçiləri ikinci yeri onlar tutacaqlar. Saat 22:00-da eyni vaxtda başlayacaq qarşılaşmalar bizə çox həyəcanlı dəqiqələr vəd efir.

Dünya çempionatının əsl həyəcanı, daha doğrusu, qırğın indi başlayır...

❑ **Nazim Sabiroğlu, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 135 (7024) 25 iyun 2018

# Bakıda kirayə evləri bahalaşdıran səbəblər

## Makler: "Köhnə məhəllələrin, binaların sökülməsi kirayə evlərə tələbatı artırıb"



**Yay tətilinin başlaması, təhsil ilin yekunlaşması ilə əlaqədar Bakıda kirayənişin yaşayan tələbələr evlərinə dönür. Bu səbəbdən də paytaxtda kirayə boş mənzillərin sayı artır. Bunun qiymətlərə təsiri olub-olmadığı haqda Bakının ev bazarındakı qiymətlərlə maraqlandıq. Maraqlıdır ki, paytaxtda kirayə evlərin qiymətində bahalaşma müşahidə olunur.**

20 ildən çoxdur Bakıda maklerlik edən Ədalət Eyyubov bildirir ki, son zamanlar ev bazarında kirayə evlərin qiymətində artım müşahidə olunur: "Ötən illə müqayisədə Bakıda kirayə evlərin qiymətində 10-15 faiz artım görünür. Bu artımı tələbələrlə əlaqələndirməzdim. Əsas səbəb şəhərdə köhnə tikililərin üzərində pilot layihələrin çoxalması, köhnə binaların sökülməsi, bina sakinlərin binanın tikintisi başa çatana qədər müvəqqəti kirayənişin yerləşdirilməsidir. Ev bazarında kirayə mənzillərin qiymətində artım ərazi üzrə söküntü olmayan rayonlarda daha çox hiss olunur. Xüsusən də "Əcəmi" metro stansiyası ətrafında. Yasamal rayonundan köçürülən əhalinin əksəriyyəti "Əcəmi"yə üz tutur. Bu yaxınlarda Nəsimi rayonunun "Papanin" adlanın ərazisində də bir neçə məhəllə sökülüb".

Ə. Eyyubov onu da qeyd edir ki, bəzi tələbələr indidən növbəti tədris ili üçün ev icarəyə götürürlər: "Avqust-sentyabr aylarında sıxlıq olur deyə maddi imkanı normal olan tələbələr indidən növbəti tədris ili üçün kirayə ev seçirlər. Ancaq yenə də boş ev tapmaq mümkündür. Boş ev tapmaq əsasən qışda çətin olur. Çünki qışda evini dəyişmək istəyənlərin sayı az olur".

Bakıda kirayə evlərin qiymətinə gəlincə, makler deyir, köhnə binalardan ucuz evlər tapmaq mümkündür: "Köhnə binalardan 250-300 manata əşyasız, 2 otaqlı mənzil tapmaq olar. Bu qiymət olan evlərin təmizliyi, təmiri o qədər də ürəkaçan olmur. Əla təmirli, şəraitli, əşyalı iki otaqlı evlər 350 manatdan başlayır. Qışda istilik sisteminin, yayda kondisionerin olması qiymətə təsir edir. Bakıda Nəsimi və Səbail rayonlarından şəhərin mərkəzinə doğru kirayə evlərin qiyməti bahadır. Ən ucuz kirayə evlər isə Qaradağ rayonundadır".

❑ **Ləman MUSTAFAQIZI,
"Yeni Müsavat"**



# Hacıqabulda dəhşət: xalası qızının boğazını kəsdi

**Gecə saatlarında Hacıqabul rayonunun Muğan qəsəbəsində qətl hadisəsi qeydə alınıb. APA-nın Mil-Muğan bürosunun məlumatına görə, Hacıqabul sakini, 1994-cü il təvəllüdlü İsmayılzadə Ayəddin Elman oğlu xalası qızı - Hacıqabul sakini 1994-cü il təvəllüdlü Məlikli Rəvanə Məlikağa qızının boğazının kəsərək qətlə yetirib.**

Məlumata görə, R.Məlikli Muğan qəsəbəsində nənəsi ilə yaşayıb. Evə daxil olan A.İsmayılzadə xalası qızının boğazının şah damarını kəsərək, bıçağı onun sinəsinə sancıb. A.İsmayılzadə daha sonra Hacıqabul rayon Polis Şöbəsinə gələrək təslim olub.

Hadisənin qısqanclıq üstündə törədildiyi ehtimal olunur. Qətlə yetirilən qadının meyiti müayinə olunmaq üçün Şirvan şəhər Pataloji Anatomiya və Məhkəmə Tibbi Ekspertiza Mərkəzinə gətirilib.

Faktla bağlı Hacıqabul rayon Prokurorluğu tərəfindən cinayət işi başlanıb, araşdırma aparılır.

**Yay mövsümü olduğundan energetik içkilər, qazlı sulara tələbat kəskin artıb. Son bir neçə ildə ölkəmizdə onlara maraq kütləviləşib. Xüsusən də gənclər və yeniyetmələr bu cür içkilərin ən çox istifadəçisidir. Heç də gizlin deyil ki, tərkibində insan orqanizmi üçün zərərli maddələr olan bu içkilərin istifadəsinin kütləvi şəkildə yayılmasının əsas səbəblərindən biri reklam kampaniyalarıdır.**

# Reklam edilən energetik içkilər qəfil ölümə gətirə bilər - SOS

## Həkim: "Belə içkilər yeniyetmələrə, böyüyən uşaqlara qətiyyən olmaz"



Efir məkanlarında mütəmadi olaraq bu cür içkilərlə bağlı insanları şirnikləşdirən reklamlar nümayiş olunur. Bəzən isə küçədə onların reklam olaraq pulsuz paylanıldığının da şahidi oluruq. Supermarketlərdən tutmuş, ən xırda mağazalarda belə "Hell", "Burn", "Boss", "Jaguar", "Rox", "Red Bull", "Pitbull", "Bizon" kimi markalara rast gəlirik. Bu cür içkilərin qiyməti 1-4 manat arasında dəyişdiyindən bəzən yeniyetmələr və uşaqlar üçün də əlçatan olur. Halbuki dünyanın bir çox inkişaf etmiş ölkələrində energetik içkilərin reklamı, istehsalı və satışı qadağan olunub.

Məsələn, Rusiya Səhiyyə Nazirliyi hələ 2010-cu ildən energetik içkilərin reklamını məhdudlaşdırmağı təklif edirdi, çünki bunu uşaq və yeniyetmələrin sağlamlığı üçün təhlükəsiz saymırdı. Lakin bu təşəbbüsün nəticəsi olmadı. 1 il sonra həddi-buluğa çatmayanlara alkoqolsuz enerji içkilərinin satışını qadağan edən qanun layihəsi Dövlət Dumasına təqdim olunub. Parlament tərəfindən dəstəklənmədiyindən 2 il sonra təkrar müzakirəyə çıxarılıb. Bu dəfə də deputatlar layihəni geri çevirdilər, Rusiya hökuməti qadağa üçün yetərli tibbi səbəb görmürdü. Bununla belə, məsələ yenidən müzakirəyə çıxarıldı və qanun layihəsini Dövlət Dumasında müxtəlif fraksiyalardan olan 40 deputat imzaladı. Lakin energetik içkilərin satışının məhdudlaşdırılması cəhdi yalnız dövlət başçısı Vladimir Putin deputatlarla görüşündə öz mövqeyini ortaya qoyduqdan sonra baş tutdu. Energetik içkilərə qadağaya münasibətini o, belə ifadə etmişdi: "Mən bu sahədə indi daha qətiyyətlə hərəkət edərdim".

Norveç, Danimarka, Fransada da belə içkilərin sərbəst satışı qadağandır. Ölkəmizdə də dəfələrlə energetik içkilərin satışının qadağan olunması və yaxud ən azından yeniyetmələrə, uşaqlara satılmaması barədə təkliflər olub. Bir sıra deputatlar təkliflə çıxış edərək bildirmişdi ki, energetik içkilər Azərbaycanda aksiz dərəcəsi təyin olunan mallar siyahısına daxil edilməli, qiymətinin bahalaşması üçün əlavə aksiya vergiləri tətbiq edilsin. Lakin bu təkliflər elə təklif olaraq qaldı və hələ də əlində bu cür içkilər olan məktəb yaşlı uşaqlarla tez-tez rastlaşırıq.

Bəs energetik içkilər hansı fəsadlar yaradır? Yerli ekspertlər də qeyd edir ki, energetik içkilər qəfil ölümlərə səbəb ola bilir. Belə ki, bu içkilər insanın istər psixoloji durumuna, istərsə də ürək-damar sisteminə, maddələr mübadiləsinə mənfi təsir göstərir, yuxu, əsəb sistemini pozur. Ən pisi isə energetik içkilər insanda asılılıq yaradır və nəticədə insanlar bəzən öz fəaliyyətlərinə nəzarət edə bilmirlər. Bəzi ekspertlər qeyd edir ki, energetik içkilərin insanlarda asılılıq yaratması üçün məqsədli şəkildə tərkibinə müəyyən əlavə edilir. Belə ki, onların tərkibində əsasən kofein olur və onun dozası yüksək dərəcədə götürülür. Bu maddələr orqanizmi bir müddət tonusa gətirsə də, sonradan ona yenidən ehtiyac yaradır. Yəni energetik maddələrdən asılılıq yaranmağa başlayır. Digər tərəfdən, stimullaşdırılmış əzələlər, xüsusən də ürək əzələsinin normadan artıq çalışması sonradan ürək əzələsinin boşalması və müəyyən zədələrin yaranmasına səbəb ola bilir. Ümumiyyətlə isə ekspertlər də dəfələrlə vurğulayır ki, bu cür içkilərin üzərində tam olaraq tərkibi yazılmaya, göstərilməyə bilər.

Xatırladaq ki, bir müddət bundan əvvəl energetik içkilərin zərərli maddələrdən ibarət olması ilə yanaşı, tərkibində öküz sperması olduğu haqda məlumatlar yayılmışdı. Araşdırma nəticəsində məlum olmuşdu ki, energetik içkilərə öküz sidiyi və spermasından əldə edilən bir maddə əlavə edilir. Belə ki, "Lonqorn" şirkəti enerji içkisi markalarını test edib. Şirkətin gəldiyi nəticə isə ürəkbulandırıcı olub. Araşdırma sonrası energetik içkilərin tərkibində öküz sperması olduğu aydınlaşıb.

Beləliklə, yay mövsümündə təkcə energetik içkilər deyil, qazlı sulara da tələbat artır. Bəs bu kimi içkilər və qazlı sulardan kimlər istifadə edə bilər?

Mövzu ilə bağlı tibb elmləri doktoru, professor Adil Qeybulla "Yeni Müsavat"a danışdı: "Energetik içkilərdən mümkün qədər az istifadə etməyə çalışmaq lazımdır. Çünki onun tərkibindəki kofeinlər və digər maddələr ürəyə təsir edir, onun yığılma sayını artırır, beləliklə ürəyi yorur. Bəzən gün ərzində bu içkilərdən bir neçə dəfə istifadə edilir, nəticədə ürəyə böyük yük düşür. Məhz bu ürək əzələsinin zədələnməsinə və digər fəsadlara gətirib çıxarır. İkinci tərəfdən energetik içkilər yeniyetmələr, böyüyən uşaqlara qətiyyən olmaz. Lakin təəssüflər olsun ki, orta məktəb bufetlərində və yaxud məktəbə yaxın olan mağazalarda uşaqlar bu içkilərdən alıb içilər. Heç kəs də bu məsələyə nəzarət etmir. Yaxşı olar ki, 18 yaşına qədər olan uşaqlara energetik içkilər satılmasın. Həmçinin energetik içkilərdən istifadə edən böyük yaşılı insanlar da ehtiyatlı olmalı, ona aludə olmamalıdırlar. Bildiyiniz kimi, energetik içkilərin içində kofein var və bu da insanlarda aludəçilik yaradır. O ki, qaldı qazlı içkilərə, onlardan da mümkün qədər az istifadə etmək lazımdır. Yəni, hər dəfə karbon qazı vurulmuş içkilərdən istifadə mədə-bağırsaqlarda gərginlik yaradır. Bəzən insanlar qazlı sulardan gəyirmək üçün istifadə edir. Lakin hesab edirəm ki, bu, doğru üsul deyil. Yaxşı olar ki, qazsız içkilərdən, adi sulardan istifadə olunsun. Ən təhlükəli isə qazlı içkilərin plastik qablarda olmasıdır. Bu, bəşəriyyətin bəlasıdır və artıq məsələ ilə bağlı həyəcan təbili çalınıb. Ona görə də bu problem həll olunmaq üzrədir".

❑ **Xalidə GƏRAY,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT

Son səhifə

N 135 (7024) 25 iyun 2018



## Onlar ömrünün 3 ilini güzgü qabağında keçirirlər

Qadınların evdən çıxarkən uzun-uzadı "güzgülənməsi" adi haldır. Böyük Britaniyada aparılmış araşdırma nəticəsində məlum olub ki, 1 qadın ömrünün təxminən 3 ilini güzgü qarşısında keçirir. Kosmetika şirkətlərindən birinin sifarişilə aparılmış araşdırma zərif cins nümayəndələrinin xarici görünüşünü qaydaya salmaq üçün məhz bu qədər vaxt sərf etdiyini üzə çıxarıb.

Məlum olub ki, həftə içi qadınlar hər səhər təxminən 40 dəqiqə güzgü qarşısında dayanır. Harasa getməyə hazırlaşan zaman zərif cinsin nümayəndələrinin hazırlığı təxminən 1 saat 12 dəqiqə çəkir. Bu vaxtı qadınlar duş qəbuluna, epilyasiyaya, krem çəkməyə, saça qulluğa, makiyaja və geyinməyə sərf edir.

Statistika göstərir ki, kişi ilə qadın arasında münasibətlərin pozulması və boşanmaların təxminən 10%-nə səbəb qadınların uzun-uzadı güzgü qarşısında dayanmasıdır. Bu, bəzi kişiləri son dərəcə əsəbiləşdirən məqamdır.



## Qadınlar hafizəsini daha tez itirirlər

İngiltərənin Hertfordshire Universitetinin apardığı araşdırmaya görə, yaddaşsızlıq kişilərə nisbətən qadınlarda daha sürətlə inkişaf edir. Mütəxəssislər 828 kişi ilə 1.238 qadını əhatə edən 15 ayrı araşdırmanı qarşılaşdırıb. Normal durumda hafizə və şifahi ifadə testlərində kişilərdən daha yaxşı nəticə göstərən qadınlar yaddaşsızlıq məsələsində güclü cinsdən geri qalır. Araşdırmanın nəticəsinə görə, qadınların beyni kişilərinkinə nisbətən çox zəifdir.

# Ərindən aldığı intiqam dillərə dastan oldu

Rusiyada xəyanətə uğrayan qadın ərindən maraqlı intiqam alıb. Belə ki, o, kompüterini açıq qoyan ərinin başqa bir qadınla yazışmalarını oxuyandan sonra fərqli üsula əl atıb. O, ərinə məxsus bütün dəyərli əşyaları şəhərin ayrı-ayrı yerlərinə yerləşdirib və bu barədə ona yazdığı "sevgi məktubu"nda qeyd edib. Məlum olub ki, qadın ərinin kompüterini tanış olduqları parkda hansısa oturacağın altına, bank kartlarını ilk dəfə öpüşdükləri kafedə masaya, sevimli disklərini onun sevdiyi bir kinoteatrda, maşınının açarını isə sevgilisinin yaşadığı evin qarşısındakı ağacın altına basdırıb.



Qadın bunu məktubda yazaraq, sonda məzəli bir qeyd edib: "İndi isə bütün bunları toplamaq üçün sənin çox az vaxtın var, yaramaz. Əgər bunları səndən əvvəl heç kim ələ keçirməyibsə təbii ki..."

# Yatanda amerikan idi, oyananda isveçli oldu

Amerikadakı bir motel otağında baygın vəziyyətdə tapılan Maykl Botrayt oyandığı zaman özünü isveçli kimi təqdim edib. Hazırda ancaq İsveç dilində danışa bilən 61 yaşlı adam keçmişini xatırlamır. Amma kişinin üstündəki şəxsiyyət vəsiqəsində adı Maykl Tomas Botrayt, özü isə Floridalı olaraq qeyd edilib. Həkimlər isə ona "müvəqqəti planetiar amneziya" diaqnozu qoyublar.

Fiziki və mənəvi travma nəticəsində ortaya çıxan bu xəstəliyin özəllikləri yaddaş itkisi, ani və planlaşdırılmamış səfərlər, habelə hər hansı bir kimliyə bürünmə ola bilər.

Maraqlıdır ki, 61 yaşlı kişi iki dəfə evli olduğunu desə də, polislər onun keçmiş həyat yoldaşlarını, ümumən isə keçmiş həyatına dair heç nə tapa bilməyiblər. M.Botrayt hazırda ingilis dilini də unudub, ancaq İsveç dilində danışır. Bundan başqa, avtobusa minmək, puldan istifadə etmək kimi gündəlik vərdişlərini də unudub. Bu qəribə xəstənin necə yaşayacağı isə sual altındadır.





## Siqareti atandan sonra kökəlirsən, çünki...

Avstriyanın "Der Standard" qəzeti İsveçrə alimlərinin siqareti atan insanların kökəlmə səbəbləri ilə bağlı apardıqları elmi araşdırmasının nəticələrini dərc edib.

Redaksiya məqaləsində siqaretlə vidalaşanların 80 faizinin ortalama 7 kq (2.2 faiz) kökəldiyi qeyd edilir. Sən demə, çəki artımı hətta qidalanmanı (kalorini) tütün asılılığı dövrü ilə müqayisədə azaltdıqda da baş verir.

Alimlərin fikrincə, artım bağırsağın bakterial mühitindəki dəyişikliklərlə bağlıdır. Bəlli olub ki, təzəcə siqaretlə vidalaşan insanların bağırsağında kök insanların bağırsaq florasında dominantlıq edən bağırsaq ştamlarının miqdarı artır. "Görünür, yeni bakterioloji flora qidanın tərkibindəki enerjinin daha effektli sərfini təmin edir", - deyə alimlər qənaətə gəliblər.




QOÇ - Passiv gündür. Hansısa qeyri-adi hadisəni gözləməyə dəyməz. Yaxşı olar ki, üzərinizə düşən adi işlərin həlli ilə məşğul olasınız. Məxfi görüşləri və səfərləri təxirə salın.

BUĞA - Təxminən saat 14-ə qədər ümumi əhvalınız süst olduğundan bütün ciddi işlərinizi təxirə salın. Sonrakı müddətdə isə maliyyə uğurlarınız gözlənilir. Uzaq yola çıxmayın.

ƏKİZLƏR - Qarşılıqlı münasibətlərdə, eləcə də işgüzar sövdələşmələrdə ulduzlar sizə dəstək verəcək. Böyük uğurlarınızın ilkin qığılcımları məhz bu təqvimdən etibarən start götürəcək.

XƏRÇƏNG - Kifayət qədər mübahisəli gündür. İfadə etdiyiniz hər bir sözə ciddi yanaşın. Əks təqdirdə münaqişəli situasiyalara cəlb olunacaqsınız. Falçı və cadugərlərdən uzaq olun.

ŞİR - Maraqlı görüşlər yolunuzu gözləyir. Bu kimi sövdələşmə və müzakirələrdə iştirakınız yaxın gələcəyin planlarını həyata keçirməyə kömək edəcək. Şübhəli adamlardan uzaq olun.

QIZ - Qarşınızda duran bu təqvim sizə xoş ovqat bəxş edəcək. Hər hansı xoşagəlməzliyi ağlınıza gətirməyin. Ailə üzvlərinizə, sevdiyiniz adamlara qarşı mülayim olun. İnsanları dəyərləndirin.

TƏRƏZİ - İxtiyarınızda olan bu təqvimdə savab işlərinizin sayını artırmağa çalışın. Bu, sonrakı proseslərin həllində sizə kömək edəcək. Mövcud problemləri həlledilməz hesab etməyin.

ƏQRƏB - Hər mənada uğurlu təqvimdir. Öz gücünüzə etibar edin. Çünki Göy qübbəsi sizə elə bir enerji verəcək ki, bütün maneələri dəf edə biləcəksiniz. Axşamsa sürprizlər gözlənilir.

OXATAN - Sevgi məsələlərinə mülayim yanaşın. Bu, həm mövcud olan əsəbiliyinizi azaldar, həm də işlərinizin yaxşılaşmasına təkan verə bilər. Qohumluq münasibətlərinə fikir verin, ayırma ovqatından qaçın.

OĞLAQ - Günün birinci yarısında nəzərdə tutduğunuz perspektivlərin müəyyən hissəsini həll edə biləcəksiniz. Nahardan sonra isə yalnız neytral mövqe tutmalı, riskdən uzaq olmalısınız.

SUTÖKƏN - Bütün diqqətinizi səhhətlə bağlı problemlərin həllinə yönəldin. Bu amilə məsuliyyətlə yanaşsanız, ciddi çətinlikləriniz olmayacaq. Axşam saatlarında simsarlarınıza baş çəkin.

BALIQLAR - Əksər məsələlərdə gün sizin xeyrinizə işləyəcək. Şəxsi işlərinizdə müsbət rol oynaya biləcək insanlarla da rastlaşacaqsınız. Unutmayın ki, uğurlarınıza gedən yolun astanasındasınız.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## İş prosesində internet fasiləsizdirsə... məhsuldarlıq aşağı düşür



Amerikalı psixoloqlar müəyyənləşdiriblər ki, iş prosesində fasiləsiz internetin olması məhsuldarlığın keyfiyyətinə təsir edir. Rusiya mətbuatının yazdığına görə, insanlar hər gün səhər işə gələndə onları maraqlandıran xəbər saytlarına, qəzetlərin on-line versiyasına, birja məlumatlarına baxır. Bu zaman diqqəti yayınan şəxs işinə tam adaptasiya oluna bilmir.

Məlum olub ki, hətta son illər sosial şəbəkələrə aludəlik, insanların virtual ünsiyyəti də iş gününün ən azı bir saatını "oğurlayır". Ona görə də dünyanın bir çox ciddi iş yerlərində sosial şəbəkələrə, əyləncə saytlarına giriş qadağan edilib.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Son dəqiqə" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100